HOMERİN POEMALARI
VƏ
«KİTABİ-DƏDƏ QORQUD»

1

Şifahi söhbətlərdə və bir sıra yazılarda Homerin «Odisseya» əsərindəki Təpəgözlə «Kitabi-Dədə Qorqud»dakı Təpəgöz arasında bir yaxınlıq olduğu söylənilir. Əsərləri diqqətlə nəzərdən keçirmədikdə bu cür söhbətlərin təsadüfi oxşarlığa əsaslandığı, əfsanəvi olduğu və təpəgözlər arasında heç bir əlaqə olmadığı düşünülür. Necə ola bilər? Homerin əsərləri 3300 il əvvəlin hadisələrini əhatə edir, bizim «Dədə Qorqud»un isə «uzağı» 1500 yaşı var. Odur ki müqayisə ağla batmır.

«Dədə Qorqud»a bələdik. Hadisələri bilirik. Homeri isə ya oxumuruq, ya da alayarımçıq oxuyub macəralarla əylənirik, qurtarıb bir tərəfə atırıq. Diqqətlə oxuyanları isə, görünür, bu cəhət maraqlandırmayıb.

Yaşdan əlavə, bu əsərlərin ruhən yaxın olduğunu görməyə mane olan başqa cəhətlər də vardır: Homerin əsərləri çoxallahlılıq dövrünün məhsuludur, əsərdə bütün hadisələrin törədiciləri Zevs və onun arvadı Hera başda olmaqla Olimp allahlarıdır; «Dədə Qorqud»da isə təkalllahlılıqdır və heç Homerin ağlına da gəlməyən islam dini, islam allahı və türk Tanrısıdır.

Təəssürat belədir ki, Homerin qəhrəmanları uzaq bir ərazinin sakinləridir, tamam başqa dil və din daşıyıcılarına – hindavropalılara məxsus yunanlardır, «Dədə Qorqud»un qəhrəmanları bütün türklər də deyil, bir tayfadır, oğuzlardır, vaxtilə bizim indiki Azərbaycan respublikası ərazisində yaşamış, bəlkə də dünyanı dolaşıb gəlmiş bir tayfadır. Homerdə qəbilələr ittifaqıdır, «Dədə Qorqud»da iri Oğuz tayfası gözə görünür. Yunanıstan haradadır - Azərbaycan harada? Həm də saxta tarixçilərimizin iddia etdikləri kimi, bizim ölkəmizdə hələ elmin, ədəbiyyatın, türkün, türk dilinin, türk yazı sənətinin olmadığı bir dövrdə bu əlaqələr necə yarana bilərdi?..

Faktlar göstərir ki, bu suallar Azərbaycan tarixinin qeyri-elmi, qeyri-obyektiv tədqiqindən irəli gələn suallardır. Heç bir elmi əsası yoxdur və biz yuxarıda həmin təfəkkürün doğurduğu sualları qeyd etmişik. Dastan azı Homerin yaşıdıdır, türklər, türk dili, türk mədəniyyəti, türk ədəbiyyatı isə bəlkə yunanlardan çox qədimdir. Və yenə faktlar göstərir ki, Troya müharibələri dövründə türklərlə yunanlar arasında indikindən qat-qat yaxın əlaqə olmuş, onlar çox vaxt birgə yaşamış, yaxın əlaqə və münasibətdə olmuşlar.

Amma Homerin əsərləri nə qədər müdrik əsərlərdir! Nə qədər müasirdir! Nə qədər dərkolunan və maraqlıdır! Homerin poemaları ilə onun qədər müdrik olan «Dədə Qorqud» arasında o qədər ruhi yaxınlıq var ki, bunu bu əsərlərə ayıq gözlə baxan heç kəs inkar edə bilməz...

Homerin öz dövrü, zamanı və onun bəhs etdiyi hadisələrin zamanı haqqında müxtəlif fikirlər vardır. Bu cəhətdən alman alimi M.Rimşneyderin «Olimpiyadan Homer dövrü Nineviyasına qədər» əsərində maraqlı mülahizələr vardır. Müəllif göstərir ki, Homeri oxuduqda adama elə gəlir ki, şair Krit-Miken dövrü hadisələrindən danışır. Homerin əsərləri isə bu dövrdən 500 il sonra meydana çıxmıdır. Yüksək inkişaf etmiş Krit və Miken mədəniyyəti daxili ziddiyyətlər əsasında e.ə. XII əsrdə – əhalinin məskunlaşdığı dövrdə məhv olmuşdur. Və sonra unudulmuşdur. Əgər biz indi Krit-Miken dövrü mədəniyyəti haqqında bir şey biliriksə, o, ədəbi mənbələrə, folklora görə deyil, yeraltı qazıntılara əsaslanır.

Homerin söylədiyi hadisələr həqiqətdə Miken dövrünə aiddir. Lakin həmin dövrü Homer dövrü adlandırmaq olmaz. Necə ki Getenin «Faust»unda orta əsr hadisələrindən bəhs olunduğunu nəzərə alaraq həmin dövrü «Gete dövrü» adlandırmaq olmaz. (16,4)

M.Rimşneyder Homerin yaşadığı dövr haqqında yazır: «Tam aydın şəkildə müəyyən edilmişdir ki, Homer nə e.ə.IX əsrdə, nə də hətta e.ə. VIII əsrdə yaşaya bilərdi… O, arxeologiyada «orientalizasiya» adlanan dövrə mənsubdur və onun yaradıcılığını nə bu dövrdən xeyli əvvələ, nə də bu dövrdən xeyli sonraya aid etmək olar». (16,3-4) Müəllif bir qədər sonra həmin dövrü belə səciyyələndirmişdir: Bu dövrdən danışılarkən «Əslində, Şərqi təqlidə cəhd olunduğu dövrdən deyil, əksinə, *oykumen* (yunanlar onlara məlum olan bütün məskun dünyanı belə adlandırırdılar) üçün xarakterik olan macəralar, kəşflər dövrü, ruhi-mənəvi azadlıq dövrü dünyaya münasibətindən söhbət gedir ki, onun mərkəzi sözün həqiqi mənasında heç də Şərqdə yerləşmir, Aralıq dənizində – onun Şərq sahillərində yerləşirdi. Əgər biz e.ə.750-ci ildən 600-cü ilə qədərki dövrü «Homer» dövrü adlandırırıqsa, yalnız ona görə yox ki, Homer həmin dövrdə yaşamışdır, ona görə ki bu dövr vahid bir dövr təşkil edir…» (16,4)

Yəni müəllif demək istəyir ki, Homer öz əsərlərini həmin əsərlərdə bəhs olunan hadisələrdən 500 il sonra qələmə almışdır və bu dövr elə bir dövr idi ki, hələ Şərq öz zəngin mədəniyyəti ilə Qərbi təsiri altına ala bilməmişdi və bütün qəbilələrin, tayfaların özünə məxsus dərketmə imkanları mövcud idi.

Ola bilər. Lakin əhali o qədər tez-tez yerdəyişmələrə məruz qalır və müxtəlif etnoslar qarışıq halda yaşayırdılar ki, eyni mif və hadisələri asanlıqla bir-birinə ötürə bilirdilər.

M.Rimşneyder «Homer dövrü»nü xarakterizə edərək yazmışdır: «Homer dövrü» özünəməxsusluğu ilə ona minnətdardır ki, e.ə.XII əsrin əvvəlində Xett imperiyasının dağılması dövründən Ön Asiyada faktik olaraq elə bir böyük dövlət mövcud olmamışdır ki, başqa xalqların həyatına həlledici təsir edə bilsin. Çoxsaylı balaca dövlətlər hər cür xarici himayədarlıq olmadan yaşaya bilirdilər». (16, 5) Dövrün bu düzgün

xarakteristikasını biz həm Troya dövrü etnoslarının yaşadığı mərhələyə, həm də oğuzların «Kitabi-Dədə Qorqud»dakı zamanına aid edə bilərik. Hər iki əsərdən aydın olur ki, həqiqətdə də elə bir güclü istilaçı hegemon dövlət yoxdur və bir-biri ilə vuruşan xalqlar əsasən eyni gücdə olan qəbilələr birliyindən ibarətdir.

«Kitabi-Dədə Qorqud»u oxuduqca fikrimizi ifadə edə bilməsək də, daim belə bir daxili düşüncə ilə yaşamışıq ki, hadisələrin cərəyan etdiyi dövr necə bir dövrdür? Ətrafda nə fars var, nə ərəb var, nə erməni, nə də gürcü. Elə bir güclü dövlət müşahidə olunmur ki, fikirləşəsən ki, oğuzlar üçün qorxuludur. Elə bil, elə bir dünyadır ki, yer üzündə yalnız oğuzlar var və bir də qüvvə etibarilə onlara az-çox bərabər olan müxtəlif qəbilələr. Bu, həqiqətdə də dastandan alınan əsas təəssüratdır və zaman etibarilə M.Rimşneyderin təsvir etdiyi dövrə tam uyğundur. Deməli, dastanın üzərində işləyənlər, onu zamana uyğunlaşdıranlar ictimai quruluşu dəyişə bilməmiş, zamanın əsas səciyyəsini olduğu kimi saxlamağa məcbur olmuşlar.

Yunanların daimi yaşadığı ərazi bizə məlumdur. Bəs türk-oğuzlar haqqında nə demək olar?

Əvvələn, burada bir şeyi birdəfəlik nəzərə almaq lazımdır ki, «Kitabi-Dədə Qorqud»un Səlcuq oğuzları ilə heç bir əlaqəsi yoxdur. Səlcuqlar türklərin bir qolu kimi, bu dastan haqqında, qədim bir türk eposu kimi məlumata malik ola bilərdilər. Ən ibtidai məntiqsizlikdir ki, sərkərdə Səlcuqun başçılığı ilə yaranmış bir türk toplumu – tayfası gəlib az vaxt ərzində bütün şimali və cənubi Azərbaycanı türkləşdirib keçsin Anadoluya. İkinci məntiqsizlik o olardı ki, madam Səlcuqun dəstəsi Anadoluya keçmiş və oranı əbədi türk yurduna çevirmişsə, nə üçün dastanda oğuzların yerləşmə parametrləri Azərbaycan əraziləri üzərinə düşür? Deməli, bunlar ibtidai düşüncənin məhsuludur.

Səlcuqlar dastan yaradan oğuzlar deyil. Dastanı yaradanlar Azərbaycanın qədim əhalisi olan, ən azı ilkin mərhələlərdə yunanların qonşuluğundan şərqə doğru yayılmış oğuzlardır. Orta Asiyada «Dədə Qorqud» yarana bilməzdi. Onun Homer poemaları ilə bütün uyğunluqları Ön Asiya – Azərbaycan hüdudları ilə bağlıdır. Bunu bizdən 50-60 il əvvəl Ə.Dəmirçizadə də qeyd etmişdir. (17, 104)

Tarixi də çox qədimdir və ilkin formalaşmanın ən azı M.Rimşneyderin təsvir etdiyi dövrə düşdüyünü inamla söyləmək olar. Dastanın müqəddiməsinin XV əsrdə yazıya köçürülərkən əlavə edildiyi barədə fikirlər vardır. (16,5) Bunlar göstərir ki, dastanı yazıya yenidən köçürən şəxs onu islam dini ilə bağlamağa zamanına yaqın Bayat boyından Qorqut ata diyərlər, bir ər qopdı».(18,31)

Lakin araşdıralar göstərir ki, dastanın aparıcı şəxsiyyətlərindən biri olan Qorqud obrazı türk təfəkküründə daha qədim tarixə malikdir. Qorqud daha qədim mifoloji bir obrazdır.

Əli Sultanlı Dədə Qorqud haqqında xalq arasında mövcud olan belə bir əfsanəni xatırladır: Dədə Qorqud aydın, bərraq gözlü divin qızından dünyaya gəlmişdir. Boyu altı arşın imiş. Gənc yaşlarında qopuz və tambur çalmağı öyrənmişdir. O, xanların məsləhətçisi olmuş, dörd yüz il yaşamışdır.

Dədə Qorqud ölümdən qaçarmış.O, bir gün yuxuda yerqazanlara rast gəlir. Soruşur ki: «Bu yeri nə üçün qazırsınız?» «Müqəddəs Qorqud üçün qazırıq» deyirlər. O, qəbirqazanlardan qaçır, Yer kürəsinin mərkəzinə enir. Qaranlıq dünyaya gəlib çıxır. Su üstündə yaşamaq qərarına gəlir. Su üstünə xalça salır və orada 100 ilə qədər qopuzunu çalır. Lakin ölüm ondan əl çəkmir. Ölüm ilan şəklində suya girib xalçaya dırmaşır, Dədə Qorqudu çalıb öldürür.(15,8-9)

Biz bu əfsanəni oxuyan kimi, «Gilqamış» dastanı, Gilqamışın başına gələnlər – onun ölməzlik çiçəyi əldə etməsi, lakin həmin çiçəyi ilanın oğurlaması, Gilqamışın arzusuna çata bilməməsi yadımıza düşdü. Və sonra gördük ki, bu düşüncə ilə hələ 25-30 il əvvəllər görkəmli alimimiz Mirəli Seyidov yaşamışdır.

Mirəli müəllim qeyd edir ki, boylardakı Qorqud «daha əskilərlə bağlıdır və özgə dünyanın – mifik aləmin nümayəndəsidir».(19,135) Və yenə deyir: «Qorqut Ata türkdilli xalqların mifoloji təfəkkürlə yaşadıqları çağın mifik obrazıdır». (19, 136) Müəllif Qorqut sözünü qor-qut şəklində iki kökə ayırmış, xoşbəxt, uğurlu od mənasında izah etmişdir.(19,136) «Qut» sözünü də mifoloji təfəkkürlə bağlamışdır: «Qut türkdilli xalqların ən əski inamları ilə bağlıdır.Bu inam öz kökləri ilə ibtidai qəbilə quruluşu insanlarının təfəkkürü ilə səsləşir». (9,139)

M,Seyidov eyni əfsanənin qazax xalqı arasında da olduğunu, musiqişünas Əhməd Jubanov tərəfindən qeydə alındığını göstərir. Bu əfsanəyə əsasən, 20 yaşında olarkən ağ paltarı bir nəfər Qorquda yuxuda bildirir ki, o yalnız 40 il yaşayacaqdır. Bunu eşidən Qorqud öz sevimli dəvəsi Jelmayaya minib dünyanı gəzir, qəbirqazanlara sual verir və eyni cavabı alır, Sır-Dərya üzərində yaşayıb qopuz çalır, lakin bir dəfə yorğun olduğundan ani mürgüləyərkən ölüm ilan cildinə girib onu çalır və öldürür. (20,230-231; 19, 189-190)

M.Seyidov əfsanəni verərək qədim şumer dastanını xatırladır və yazır: «Gilqamış»da Gilqamışın dostu öləndən sonra «o çox kədərlənir» və ölməzliyin, əbədiliyin çarəsini tapmaq üçün ölkələr gəzir, başına min bir hadisə gəlir və nəhayət, o, insanları həmişə cavan saxlayan, ölməzləşdirən «sehrkar» bir bitki tapır. İgid, qəhrəman sevinir ki, həmin bitkini «öz xalqıma» verəcəyəm, onlar yeyəcək və həmişə cavan olacaqlar. Lakin onun başısoyuqluğundan bitki nə Gilqamışa, nə də onun sevdiyi xalqına qismət olur. Qəhrəman çayda çimərkən ilan gəlib həmin bitkini yeyir və guya elə buna görə də ildə bir dəfə dərisini dəyişib cavanlaşır». (19,190)

Bu əfsanə hər bir xalqın özündə də doğula bilər, heç bir təsirin nəticəsi olmaya bilər. Lakin əfsanəni daşıyanların zaman etibarilə eyni

dövrlərin məhsulu olduğunu da pərdələyə bilməz. Odur ki bizim Dədə Qorqudun çox uzaqların, qəbilələr dövrünün yadigarı olduğuna şübhə yeri qoymur. Bunu da nəzərə almaq lazımdır ki, biz «Dədə Qorqud» deyərkən bütün Dədə Qorqud boylarının eyni tarixə malik olduğunu iddia etmirik. ««Ümumiyyətlə, Dədə Qorqudun şəxsiyyəti əsatirlər pərdəsi altında şübhələşmişdir. Hər halda, bu dumanlı pərdə arxasında qədim Azərbaycan qəbilələrinin qüvvətli bir ozanı yaşamaqdadır».(15,10)Və «deyilənlərdən belə nəticə çıxarmaq olur ki, Dədə Qorqud dastanın ilk yaradıcısıdır. Onun ilk nüvəsini, nəğmələrin rüşeymini o qoşub söyləmişdir». (15,11)

Qədim dastanlar arasında uyğun cəhətlərdən biri qonşu qəbilələrə basqınlar üçün bəhanənin ortaya çıxmasıdır. Məsələn, «İliada» əsərində yunanların Troyaya basqını üçün bəhanə Aqamemnonun qardaşı Menelayın arvadı gözəl Yelenanın Troya padşahının oğlu Paris tərəfindən qaçırılmasıdır. Guya yunanlar Menelayın namusunu qorumaq üçün vuruşurlar. Bu cəhət «Dədə Qorqud» boylarında da özünü göstərməkdədir. «Dədə Qorqud» boylarında verilmiş bəhanələrin bir qismi «sadəcə qəhrəmanlıq sınağı ilə bağlı isə, ikinci qismi ailə və intiqam motivləri ilə bağlıdır».(15,39) «Salur Qazanın evi yağmalandığı boyu bəyan edər» boyunda oğuz bəylərinin qonşu qəbiləyə hücumu Qazan ovda olarkən oğlu Uruzun və arvadı Burla xatunun əsir aparılmasıdır. «Bayburanın oğlu Bamsı Beyrək boyunu bəyan edər» boyunda Beyrəyin toy gecəsi Təkurun adamları tərəfindən oğrurlanmasıdır. «Qazan bəyin oğlu Uruz dustaq olduğu boyu bəyan edər» boyunda bəhanə Uruzun əsirliyidir. Yeddinci boyda bəhanə Qazlıq Qocanın əsirlikdə olmasıdır və s.

«Dədə Qorqud»un üç boyunda – «Basatın Dəpəgözi öldürməsi», «Qam Börənin oğlı Bamsı Beyrək» və «Salur Qazanın evi yağmalandığı» boylarında «Odisseya» əsəri ilə güclü süjet eynilikləri daha çox müşahidə olunur.

Bu əsərlərdə tədqiq edilməli, öyrənilməli məsələlər çoxdur. Lakin məqalədə bizi maraqlandıran əsərlərin ümumi süjeti ilə bağlı uyğun və oxşar cəhətlərdir, onları müqayisəli şəkildə üzə çıxarmaq və köklərini, nədən irəli gəldiklərini, təsadüfi olub-olmadıqlarını araşdırmaqdır. Axı doğ-rudan da, bunlar zahirən «uzaq yerlərin» və «bir-birindən uzaq dövrlərin» məhsuludur. Lakin faktlar elədir ki, müqayisə etməmək qeyri-mümkündür. **Hələlik bir istisna ilə - professor Əli Sultanlının «Kitabi-Dədə Qorqud» və qədim yunan dastanları» əsəri istisna olmaqla, kimin tərəfindənsə belə bir müqayisənin aparılıb-aparılmadığını da bilmirik.**

Əli Sultanlı dastanın geniş təhlilini vermiş, ictimai-siyasi məzmunu, quruluşu, dili, boylarda dini görüşlər, oğuzların təsərrüfatı və s. haqqında maraqlı fikirlər söyləmişdir. Bizi maraqlandıran əsas məsələ «Kitabi-Dədə Qorqud»un qədimliyidir. Bu barədə müəllif yazır: «Dədə qorqud»

dastanının məzmunu, əks etdirdiyi ictimai şərait və bir sıra şəkli vasitələri göstərir ki, əvvala, onun bədii nüvəsi və ilk yaranma tarixi ərəb istilasından çox-çox əvvəl başlamış, bədii şəkildə formalaşması isə həmin keçid dövrünə təsadüf etmişdir. Dastanda ifadə edilən dünyagörüşləri, insan duyğuları, milli ənənələr, surətlərin mənəviyyatı, bütpərəstliyin üstünlük qazanan ünsürləri əsəri ərəb istilasından qabaqkı tarixlə möhkəm bağlayırsa, ağ sapla tikilmiş bəzi yamaqları əsəri keçid dövrünə gətirib çıxarır.

Əsərin öz məzmunundan da göründüyü kimi, dastanın yaranması qəbilə quruluşunun ən çiçəkli bir dövrünə təsadüf edir». (15,23)

Qəbilə quruluşu dövrü əhalini birləşdirən təşkilat forması kimi çox qədimdir və islam dinindən neçə min il əvvələ aiddir. Yəni dastanın qədimliyi barədə professorun fikri düz olmaqla yanaşı, islam dinindən 100 il, 200 il əvvəli deyil, daha uzaq dövrləri nəzərdə tutur. Bu qənaət tamamilə doğrudur və professor dastanın qədimliyinin təsdiqi üçün başqa faktlar da qeyd etmişdir. Bunlar bütövlükdə bizim gələcəyimiz nəticələrə tam müvafiqdir.

Əli Sultanlı «Kitabi-Dədə qorqud»la «İliada» və «Odisseya» arasında bir sıra uyğunluqlar da görmüşdür. Bu cəhətdən əsərlərdəki təkrarları nəzərə alaraq yazmışdır: «Hər iki əsərdə («İliada» və «Odisseya») eyni misralar dəfələrlə təkrar olunur. Qəhrəmanların sabitləşmiş və həmişə təkrar olunan sifətləri var». (15,33) Müəllif bu xüsusiyyətin eyni dərəcədə «Dədə Qorqud»a da aid olduğunu qeyd etmişdir və biz Qorqud atanın öymələrində, qəhrəmanlıq döyüşlərinin sonunda oğuz igidlərinin təsvirində bunların şahidiyik.

«Dədə Qorqud» boylarının hər birində müəyyən qəhrəmanın haqqında danışıldığı kimi, «İliada»da da başdan-başa Axillesin qəzəbinin təsvirindən ibarət deyildir: «Misal üçün, Doloniya (X), Aqamemnonun qəhrəmanlıqları (XI), Diomedin qəhrəmanlıqları (V), Patrokliya (XVI), Menelayın qəhrəmanlıqları (XVII) və sairə».(15,36)

Ümumən Ə.Sultanlı Homerin poemaları ilə «Kitabi-Dədə Qorqud» və başqa qədim dastanlarda dörd mühüm oxşar mövzunun - «özül nüvələrin» olduğunu xüsusi izah etmişdir. Buraya *ata ilə oğulun vuruşu, «ər öz arvadının toyunda», ana ilə əlaqədar oğula şər atmaq, insanla təbiətin qorxunc qüvvələri arasında mübarizə* məsələləri daxildir.

Həqiqətdə də bu dörd məsələ qədim Avropa və Şərq dastanlarından, o cümlədən «Dədə Qorqud»dan və Homerin poemalarından keçən mövzulardır. Bu dörd cəhətin müqayisəli tədqiqindən sonra professor daha çox poemalarla dastanı fərqləndirən detallar üzərində dayanmış, bizim nəzərdən keçirəcəyimiz bir çox uyğunluqlara diqqət yetirməmiş və ya bəzən ötəri bir nəzər salmışdır.

Odur ki başqa məsələləri bir tərəfə qoyub, ilk dəfə və ilk növbədə, konkret olaraq, poemalarla «Dədə Qorqud» süjetindəki oxşarlıqların

müqayisəsinə keçirik. Və ilk növbədə daim mülahizə olunan təpəgözlər aləminə nəzər salaq.

Axeylilər (yunanlar) Troyanı işğal edib dağıtdıqdan sonra 12 gəmi ilə (hər gəmidə 50 nəfər) öz yurduna – İtakaya qayıtmaq istəyən yunan qəhrəmanlarından Odissey allahların qəzəbinə gəlir və Okean sularının hiddəti nəticəsində son dərəcə macəralı yerlərə, adalara düşməli olur, Adamlarının və gəmilərinin hamısı məhv olduqdan sonra çox böyük çətinliklə tək özü İtakaya qayıdır. 10 il Troya müharibəsində, 10 il yollarda – Odissey 20 ilə evlərinə dönə bilir.

O düşdüyü adalarda qəribə adamlarla, qəribə məxluqlarla rastlaşmalı olur. Belə macəralı yerlərdən biri Taygözlər – Təpəgözlər (sikloplar) adasıdır.

Ə.Sultanlı yunan ədəbiyyatından danışarkən göstərir ki, «Siklop surəti ilk dəfə Homerin «Odisseya» adlı dastanında bədii şəklini tapmış və sonralar yunan yazılı ədəbiyyatına nüfuz etmişdir. Evripidin «Siklop» satirik dramı, «Odisseya» dastanında verilmiş siklop Polifem ədəbiyyat aləminə çoxdan məlumdur». (15,49)

Beləliklə, «Dədə Qorqud»u da nəzərə aldıqda, biz ədəbiyyatda yunan və Azərbaycan Təpəgöz surətləri ilə tanış oluruq. Bizim üçün bunların hansı yöndən təsviri əsas deyil. Əsas obrazların ümumi səciyyəsindədir.

Ə.Sultanlının fikrincə, «Kitabi-Dədə Qorqud»dakı Təpəgözlə «Odiyyeya» əsərindəki Polifemin oxşar cəhətlərindən çox, onları ayıran cəhətlər çoxdur. (15,51) Bizim Təpəgözün doğuluşu, böyüməsi barədə dastanda geniş məlumat vardır, Polifem obrazında bu cəhət nəzərə alınmamışdır. Bizim Təpəgöz adamyeyəndir, Polifem adamyeyən deyil. Bizim Təpəgöz təkdir, Polifemin olduğu adada təpəgözlər çoxdur. Bizim Təpəgöz işləmir, tüfeylidir, Polifem xalis çobandır. Bizim Təpəgöz Oğuz cəmiyyəti ilə sıx bağlıdır, Polifem cəmiyyət tanımır. Bizim Təpəgözün bədəninə qılınc keçmir, Polifemin bədəni ətdəndir və s. Əslində, bunlar aparıcı fərqlər deyil və bir qismi zahirən belədir. Söhbət mahiyyətdədir. «Dədə Qorqud»la və Homerin poeması ilə tanışlıq göstərir ki, təpəgözlər aləmində fərqdən çox, müştərək və uyğun cəhətlər vardır. Homerin Təpəgözünün xarakteri ilə «Dədə Qorqud» Dəpəgözü, Odisseyin başına gələnlərlə Basatın başına gələnlər arasında böyük uyğunluqlar mövcuddur.

Sahildə gəmiləri saxlayıb 12 nəfərlə adaya çıxan Odissey tüstü gələn mağaraya daxil olur. Məlum olur ki, burada «dağ gövdəli bir Təpəgöz» yaşayır. Odissey çox böyük çətinliklə, demək olar ki, Basatın üsulu ilə Təpəgözün öhdəsindən gələ bilir.

Hər iki təpəgözlə mağara şəraitində tanış oluruq.

Hər iki Təpəgöz su ilə bağlıdır. Dastandakı Təpəgöz su pərisindən doğulur, Polifem isə su ilə əhatə olunmuş adada yaşayır.

«Dədə Qorqud»da təsvir edilən Təpəgöz (dastanda *Dəpəgöz*) son dərəcə bədheybətdir, buğra kimi nəhəngdir. Basat onun başını güclə

sürüyüb apara bilir. Körpəlikdən dəhşətdir: «Gördilər ki, bir ibrət nəsnə yatur, başı-göti bəlürsiz… Dəpdiklərincə böyüdi. Aruz qoca dəxi enüb dəpələdi, mahmuzı doqundı. Bu yığnaq yarıldı, içindən bir oğlan çıqdı. Gödəsi adam, dəpəsində bir gözi var». (98-99 – «Dədə Qorqud»un 1988-ci il çapının səhifələri) Bizim Təpəgözə nisbətən yaşlı olan Odissey Təpəgözü daha bədheybətdir: «Üstü sıx meşəli uca dağa bənzəyirdi… eybəcər bir məxluqdu…» (470 – Homer poemalarının 1986-cı il çapının səhifələri)

Hər iki əsərdə təpəgözlər xırsızdır, heç nə ilə razılmaşmaq istəmirlər. Dastandakı Təpəgöz Oğuzlara vay çəkir, onların köçüb qaçmasına belə imkan vermir. Poemada da belədir:

Gəlib çıxdıq lovğa, quduz təpəgözlər ölkəsinə.
Nə məşvərət, nə ümumi bir yığıncaq qanır onlar. (468)

Hər ikisi adamyeyəndir və hər ikisi bir oturuma iki nəfər yeməmiş doymur. Dədə Qorqudu Təpəgözlə danışmağa göndərirlər. Hər günə iki adam və 500 qoyuna razılaşır. «Odisseya»da Təpəgözün sürü-sürü qoyun-keçisi, mal-heyvanı var. O da hər dəfə bir oturuma iki adam yeyir:

İki nəfər tutdu, küçük vurur kimi, vurdu yerə,
Parçalayıb canı çıxmış cəsədləri, şam elədi. (472)

Hər iki təpəgözün bir tərəfi insanla, bir tərəfi ilahi qüvvə ilə bağlıdır. Dastanda Təpəgöz Sarı çobanın pəri qızlardan biri ilə «cima» etməsindən doğulur; poemada da belədir: Təpəgöz Zevsin qardaşı «boz dənizlər allahı» Poseydonun övladıdır, onun fanilərlə (insanlarla) əlaqəsi nəticəsində doğulmuşdur: «Poseydonun oğluyam mən, öz oğluyla fəxr edir o». (477) Fərq buradadır ki, dastanda Təpəgözün anası, poemada atası ilahi varlıqdır.

Hər ikisi oxbatmaz, qılınc kəsməzdir**.** Basatın oxlarını bizim Təpəgöz «sinək» (milçək) hesab edir. Poemada isə məsələ bir qədər başqa cür əsaslandırılmışdır: Təpəgöz Odisseyin öz adamları ilə daxil olduğu mağa-ranın qapısını nəhəng daşla bağlamışdır. Odissey fikirləşir ki, Təpəgözü öldürsə, daşı tərpədə bilməzlər və mağarada məhv olarlar. Odur ki Təpəgözə silahın təsir edib-etmədiyi yoxlanılmır. Lakin yeganə zəfər yetirməli yerinin tək gözü olduğu bilinir və bu hal onun da oxbatmaz olduğunu göstərir.

Hər iki təpəgöz eyni üsulla məhv edilir. Dastanda Basat şişi qızardıb Təpəgözün yeganə gözünə – ət olan yerə soxur və Təpəgözün əvəl gözünü, sonra özünü həlak edir. Poemada Odissey Təpəgözün əl ağacı düzəltmək üçün kəsib gətirdiyi dor ağacı boyda iri zeytun ağacının kiçik bir hissəsini kəsib, ucunu yonur, ocaqda qızartmaq və Təpəgözün gözünə basmaqla onu məhv edir.

Hər iki əsərdə qəhrəmanlar eyni üsulla xilas olurlar. Basat qoyun dərisinə bürünüb xilas olur. Odissey üç qoyunu bir-birinə yanaşı bağlayıb, ortadakı qoyunun altında yoldaşlarını xilas edir, özü isə Təpəgözün çox sevdiyi nəhəng qoyunun altından sallaşmaqla xilas olur.

Hər iki təpəgöz mağarada saxladıqları heyvanları əzizləyir. Bizim Təpəgöz öz heyvanlarını sığallaya-sığallaya, oxşaya-oxşaya mağaradan çölə buraxır (həm də məqsəd Basatı tutmaqdır): «Toğlıcıqlar, dövlətim saqar qoç, gəl, keç!» Poemada Təpəgöz öz sevimli qoçu haqqında:

Ah, əzizim, bu sənsənmi? Niyə bu gün mağaranı
Ən axırda tərk edirsən? Axı öncə çıxardın sən…
Bəlkə elə mənim sənə baxmağımı gözləyirsən? (475)

Hər iki əsərdə təpəgözlərin qəzəblənən zaman hədələri də uyğundur. Təpəgöz Basatın mağarada olduğunu və qoyun dərisi içində xilas olmaq istədiyini bilib deyir: «Ay saqar qoç!.. Şöylə çalayım səni mağara divarına kim, quyruğun mağarayı yağlasun!» («Qoç» dedikdə qoçun dərisində Basatı nəzərdə tutur) Yaxud: «Şöylə çalayım ki, künbədlə tartağan olasan». (101) Pomada Təpəgöz Odisseyə deyir: «Yerə elə çırpardım ki, beynin bütün mağaraya çilənərdi». (475)

Fərqli cəhətlər də var. Dediyimiz kimi, dastanda Təpəgöz təkdir, amma adada təpəgözlər yaşayır. Onlar gözünə odlu ağac basılarkən qışqıran Təpəgözün hayına gəlirlər. Lakin o: «Səni kim incidir?» - sualına «Heç kim» deyə cavab verir. Odissey onu aldadıb, adının «Heçkim» olduğunu demişdi. O biri təpəgözlər isə ona heç kimin mane olmadığını zənn edib:

Zevs göndərən xəstəliyə çarə tapmaq çətin işdir,
Sən öz atan Poseydona yalvarmağın məsləhətdir (474) –

deyərək çıxıb gedirlər. Odissey həm də əvvəlcədən Təpəgözü al şərabla kefləndirmişdi. Dastanda isə Təpəgözün qılıncı, üzüyü, künbəd məsələsi fərqli sehirli bir aləmdir və Təpəgözün sonrakı deyişməsi aşıq deyişmələrinə yaxındır. Poemada Təpəgöz bildirir ki, hələ bir vaxt falçı Yevrim oğlu Telam onun Odissey adlı bir nəfərin əli ilə gözdən məhrum olacağını demişdi. Təpəgöz Poseydona üz tutub Odisseyə qarğış edir, onu yeni bəlalara düçar etməsini arzulayır. Bizim Təpəgöz də Basata qarğayır:

Ala gözdən ayırdın, yigit, məni!
Tatlu candan ayırsun qadir səni! (102)

Təbii ki, bu qədər oxşarlıq təsadüfi ola bilməzdi. Heç şübhəsiz, bunlar bizim təsəvvür etdiyimizdən çox-çox qədim birgə yaşayış dövrü təsəvvürlərinin bədii ədəbiyyatda, xalq yaradıcılığında orijinal ifadəsidir.

Əli Sultanlı Təpəgözləri qarşılaşdırma məqamında alman alimi Fon Diezin 1825-ci ildə söylədiyi fikirləri xatırlatmışdır: «Buradakı Təpəgöz başqa sikloplara, hələ Homerin siklopuna bütün cəhətləri ilə bənzəyir. Ancaq oğuz siklopu yunanlarınkından alınma deyil. Yunanlarınkı bunun təqlididir». (15, 49) Fon Diez fikrini belə əsaslandırmışdır: «Oğuz Təpəgözünün Polifemdən kopya edilmiş olduğuna qənaət gətirmədiyimin səbəbləri var. Əvvəla, Şərq yunan şeriyyətini tanımamışdır. Bunun üçün Homerin əsərlərini tərcümə edə bilməzlərdi. Çünki melodiyaca heç kim tərəfindən anlaşılmayacaqdı. Asiya dilləri bunun üçün lazım olan ifadədən məhrumdurlar. O biri tərəfdən, Təpəgöz əfsanəsində Təpəgözün həyatı, doğumundan ölümünə qədər təfsilatla anlaşıldığı halda, Polifemdə çatışmazlıqlar vardır. Bu cəhətdən o, Təpəgözün kopyası və ondan iqtibas edilmiş kimi görünür. Təpəgöz naqilinin Homerdən daha çox bildiyi bundan da bəllidir ki, əgər bu əfsanə oğuzların öz malı olmasaydı, yazı ilə və yaxud ağızdan-ağıza Dədə Qorqud zamanına qədər gəlməsəydi, bu qədər tam olaraq təsbitinə imkan olmazdı. Məncə, Homer Asiya səyahətində Təpəgöz əfsanəsini eşitmişdir və Polifemin əsas həyatını ondan almışdır. Kim bilir, hər hansı bir oğuz qəbiləsi arasında İoendə eşitmişdir. Bu qəbilə Priamın müttəfiqləri olaraq yunanlara qarşı Troya müharibəsində hərb etmişdir. Bu surətlə əfsanə Kiçik Asiyadan gəlmiş və Homerin zamanında təzə-tər olaraq yaşamışdır. Nəticədə tam bir sikloplar əfsanəsi, ən köhnə zamanlardan bəri Homerdən müstəqil olaraq, göstərilən qovmlər arasında olmuşdur və yazılarında olan hər bir şeyi yunanlara mal etmək haqsızlıq olar». (15,50)

Ə.Sultanlının fikrincə, Təpəgözlə Polifemin fərqləri daha çoxdur. Məsələn, Odisseyin 6 yoldaşını Polifemin yeməsini o təsadüfi hesab edir, yəni Polifemin Təpəgözdən fərqli olaraq, adamyeyən olmadığını göstərmək istəyir. Əlbəttə, bu, doğru deyil. Bu cür fərqlərlə Polifemlə Təpəgözü hər iki xalqın – yunanların və oğuzların fərdi-milli yaradıcılıq məhsulu hesab edir. Əslində isə, bir az əvvəl nəzəri cəhətdən daha düzgün fikir söyləyir: «… müqayisə iqtibas və ədəbi təsir məqsədi ilə aparılarsa, zərərdən başqa heç bir elmi nəticə verə bilməz». (15,42) Biz də bu fikirdəyik. Hər iki obraz qonşu xalqların müstəqil olaraq eyni mif və hadisələr əsasında yaratdığı **obrazlardır.**

Homerin poemaları ilə «Dədə Qorqud» süjet və təsvirləri arasında uyğunluq yalnız bunlardan ibarət olsa idi, bunu bəlkə də təsadüfi saymaq olardı.

İkinci mühüm oxşar sxem Beyrəyin kafər zindanından xilas olub Oğuza gəlməsi, öz adaxlısına qovuşması ilə Odisseyin öz doğma yurduna –

İtakaya gəlib çıxması və düşmənlərini məhv edərək öz ailəsinə, var-dövlətinə sahib olması hadisələrinin təsvirindədir.

Hadisələr mahiyyət etibarilə eynidir. Müharibə üçün axeylilərin əlində bəhanə var: Troya padşahının oğlu Paris axey hökmdarı Aqamemnonun qardaşı Menelayın arvadı gözəl Yelenanı xeyli sərvətlə birlikdə qaçırmışdır və indi axeylilər gəmilərlə Troya ətrafına gəlmiş, doqquz ildir ki, vuruşur, lakin Troyanı məğlub edə bilmirlər. Dastanda isə vəziyyət başqa cür görünsə də, demək olar ki, mahiyyət birdir. Təkura xəbər verirlər ki, Baybican sənə söz verdiyi qızını Beyrəyə ərə verir və bu gecə toydur. Hamı yuxuda ikən kafərin 700 atlısı Beyrəyi və 39 igidini əsir aparırlar. Oğuz igidləri yalnız 16 il sonra yerini öyrənib onu azad etməyə gedirlər.

Lakin bu zahiri cəhətdir. Əslində isə əsas məsələ qarətdir – Homerin təsvir etdiyi qəbilə və tayfalar müxtəlif bəhanələrlə daim bir-birini qarət edir, bu yolla var-dövlət əldə edirlər. «İliada»da Axilles hökmdara – Aqamemnona deyir:

Ey bihəya, sənin bütün fikrin-zikrin qənimətdir!..
… sənin, bir də Menelayın
Şərəfini qorumağa gəlmiik biz, ey itsifət!
Qazandığım qənimətə yiyələnmək istəyirsən.(14)
Yaxud Olissey deyir:

Hələ bizim axeylilər Troyaya yollanmamış,
Mərd dostlarla doqquz kərə yad ellərə soxulmuşam. (533)

Əslində, «Dədə Qorqud»da da belədir. Fürsət düşən kimi, ya Oğuzlar kafər mülkünü talayır, ya da kafərlər Oğuz mülkünü. Kafər mülkünü yağma-ladıqdan sonra «Quşun ala qatını, qumaşın arusını, qızın gögçəgini, toquzlama çırğab çuxa xanlar xanı Bayındıra pəncyek çıqardılar».(66) Bu, hələ qarətin beşdə biridir – xanlar xanının payıdır. Hətta son məqamda İç oğuzla Taş Oğuz arasına nifaq da eyni məsələ ilə – qənimət məsələsi ilə bağlı düşür. Qazanın dayısı Aruz yaranmış düşmənçiliyin səbəbini belə izah edir: «Mərə, Qılbaş, ol vəqt kim, Üç, Boz oq yığnaq olsa, ol vəqt Qazan evin yağma edərdi. Suçımız nəydi ki, yağmada bilə olmadıq? – dedi. Qazanın başına bunlı gəlsün… Biz Qazana düşməniz, bəllü bilsün! – dedi». (123)

Bizim qeyd etdiyimiz bu qədim qəbilə xüsusiyyətlərini vaxtilə Ə.Sultanlı da aydın şəkildə görmüş və yazmışdır: «Nəticə etibarilə xanın və tayfa başçısının bir sərkərdə, bir rəhbər kimi əsas işi basqınları, qarətləri təşkil etmək olur. Onun bütün bacarığı, böyüklüyü bununla ölçülür. Bütün bu basqınların əsas qayəsi isə qonşu tayfaların sürülərini sürüb gətirmək, böyük sürülər üçün yaylaq, otlaq yerləri əldə etməkdir». (15,39) Qəbilə quruluşu şəraitində bu cəhətin aparıcı olduğunu Engels də qeyd etmişdir:

«Engels göstərirdi ki, qarətçilik xasiyyəti daşıyan müharibələr qəbilədə baş sərkərdəni, eləcə də ikinci dərəcəli tayfa başçılarının hakimiyyət nüfuzunu qüvvətləndirirdi. (15, 38)

Qəhrəmanların öz elinə, öz evlərinə dönüş tərzi də uyğundur. Hər ikisi qayıdarkən məqam çatana qədər onu tanımalarını istəmirlər. Tanınmasın deyə, Odissey özünü başqa bir adadan gəlmiş yad adam kimi təqdim edir. Beyrək isə yolda atını verib bir ozanın qopuzunu alır və ozan sifətində onu tanıya bilənlər arasına qayıdır.

Hər iki əsərdə işin icra vasitə və üsulları, demək olar ki, eynidir. Odisseyin 20 ildən sonra öz ölkəsinə necə gəldiyi ilə Beyrəyin 16 illik dustaqlıqdan sonra Oğuza necə qayıtdığını nəzərdən keçirək. Hər ikisi onu tanıyan cəmiyyətə köhnə paltarda, cır-cında içərisində, qoca, yaşlı adam sifətində qayıdır. Beyrək Oğuza çatarkən onu tanımayan bacılarından paltar istəyir. Bacıları onun öz paltarını verirlər, lakin Beyrək həmin paltarı geyməli olmur: «Beyrək aydır: «Gördünmi, qızlar bu qaftanla məni tanıdılar. Qalın Oğuz bəgləri dəxi tanırlar», - dedi. Qaftanı sıyırdı, götürdi, qızların üstinə atı verdi… Bir əski dəvə çuvalı buldı, dəldi, boynına kö-çürdi». (62-63)

Odissey onu tanımayan, lakin onun haqqında sevgi ilə danışan ço-banlardan təzə paltar istəyir, lakin onlar artıq paltarları olmadığını bildirirlər, onun şəhərə belə köhnə paltarda getməli olacağını söyləyirlər. Əslində, Odissey şəhərə köhnə paltarda getmək fikrindədir, onları sınamaq üçün paltar istəyir. İlahə Afina da köhnə paltarda getməyi məsləhət görmüşdür – əks halda onu tanıya bilərlər.

Beləliklə, Odissey də, Beyrək də məclisə çox köhnə paltarda, demək olar ki, dilənçi kökündə girməli olurlar. Onların məclisə bu vəziyyətdə gəlməsində məqsədləri də eynidir və iki məqsəd güdürlər: ailənin və cəmiyyətin onlara münasibətini öyrənmək və düşməni ifşa etmək. «Görəyim, Oğuzda mənim dostum, düşmənim kimdir?» (62) Hətta Odissey evinə açıq və ya gizli (tanınmaz şəkildə) qayıtması üçün falçı ilə məsləhətləşməli olur.

Belə çox pis geyimdə, tük basmış və bir qədər qocalmış görkəmdə evə qayıtsalar da, hər iki qəhrəmanın görkəmindən şübhələnənlər olur. Beyrəyin böyük bacısı deyir:

Qara qıyma gözlərin çöngəlməsəydi,
«Ağam Beyrək» diyədəm, ozan, sana!
Yüzini qara saç örtməsəydi
«Ağam Beyrək» diyədəm, ozan, sana!
Qunt-qunt biləklərin solmasaydı,
«Ağam Beyrək» diyədəm, ozan, sana!
Apul-apul yürişindən,
Aslan kibi turışından,

Qanrıluban baqışından
Ağam Beyrəgə bənzədürəm, ozan, səni! (62)

Odisseydən isə duruşuna, boy-buxununa, danışıq və səs tonuna görə arvadı Penelopanın sadiq qoca xidmətçisi Yevrikleya şübhələnir:

Bizim evə çox bəxtikəm yolçuların yolu düşüb,
Heç birisi Odisseyə sənin qədər oxşamayıb:
Sənin səsin, ayaqların və görkəmin onunkudur. (594)

Beyrək tanınmasını istəmir və bacısının verdiyi qaftanı: «Nə sən, nə Beyrək qalsun! Bir əski qaftan verdinüz, bənim başım-beynim aldınuz»-deyib» üstünə atır. Yevrikleya Penelopanın tapşırığı ilə diləngi vəziyyətdə olan bu «yad adam»ın ayağını yumalı olur. Odissey ehtiyat edir ki, ayağındakı qaban dişi yerindən qoca kəniz onu tanıya bilər:

Ürəyinə gəldi: birdən ayağını yuyan zaman
Çapığından tanınar o və açılar işin üstü. (594)

Əsərlərdə sadiq çoban surətləri vardır**.** Doğrudur, bu çoban məsələsi Beyrək boyunda da var, lakin Salur Qazanın evinin yağmalandığını təsvir edən boyda daha güclüdür. Qaraca çoban 600 nəfərlik kafər qoşunu ilə vuruşur, iki qardaşını qurban verir, sonra da Qazan xanın ardınca gedib onun ailəsini xilas etməyə kömək edir. «Odisseya»da çoban Yevmey və çobanbaşı Filoti Odisseyin mal-qarasını, donuz, qoyun və keçi sürülərini sədaqətlə qoruyur, Odisseyin gəlməsini, Penelopa məftunlarının rədd edilməsini arzulayır, hər gün onların kəsib yedikləri mal-heyvanın bu ailəyə böyük zərər vurduğunu düşünürlər:

Allahsifət çoban Yevmey yaşayırdı. O, ağanın
İşinə can yandırmaqda kölələrdən seçilirdi. (528)

Çobanbaşı Filoti isə bu 20 ildə Odisseyin gəlib çıxmadığını gördükdə hətta baş allah Zevsə asi olur:

Ey Zevs ata! Allahların amansızı sən özünsən,
İnsanı sən törətsən də, rəhmin gəlmir ona əsla,
Onu çox-çox bədbəxtliyə, dərdə düçar eləyirsən! (603)

Qaraca çoban kimi, Yevmey və Filoti də əldə silah Odisseyin düşmənləri ilə vuruşmalı, ailəsini xilas etməli olurlar.

Odissey Penelopa ilə evlənmək istəyən itakalıların yemək-içmək məclisini, Beyrək isə Yalançı oğlu Yırtacuğun şülən məclisini dağıdır, bütün

yemək-içmək qazanlarını çevirir. «Beyrək şülən yeməginin üzərinə gəldi. Qarnın toyurdıqdan sonra qazanları dəpdi-dökdi, çevirdi. Yəxninin kimini sağına, kimini solına atar. Sağdan gedəni sağ alur, soldan gedəni sol alur». (64) Odissey də yeyib-içdikdən sonra elə bir savaş başlayır ki, hər şey bir-birinə qarışır. Düşmənin özü öz əli ilə yemək-içmək məclisini alt-üst edir:

Ayağıyla vurub yıxdı önündəki masanı da,
Döşəməyə səpələndi masadakı yeməklər də,
Qızarmış ət, bir də çörək batdı yerin çirkabına. (618)

Həm Odisseyin, həm də Beyrəyin vətənə qayıtmasını istəməyən gözəl qadın surətləri var. «Məgər kafər bəginin bir bikr qızı vardı… Beyrəgi aşıqlamışdı… Hər gün Beyrəgi görməgə gəlürdi. Ol gün genə görməgə gəldi. Baqdı gördi Beyrək səxt olmuş. Qız aydır: «Neçün səxtsən, xanım yigit?»

Poemada Odissey haqqında deyilir:

O cəfakeş indi uzaq bir adada, gursaç pəri
Kalipsonun yanındadır. Zorakılıq edir pəri,
Öz sevimli vətəninə dönə bilmir mərd Odissey.(426)

Uzaq bir adaya düşmüş Odisseyi ona aşiq olan Kalipso adlı «gursaç pəri» 7 il buraxmır. Nəhayət, Hermes Zevsin tapşırığını həmin pəriyə çatdırdıqdan sonra – 8-ci il o, «Məni fani ilə ömür sürməyə qoymursunuz» desə də, məcbur olub Odisseyə sal düzəltməkdə kömək edir və onu azad edir. (450) Beyrək bundan iki dəfə artıq qallmalı olur. Lakin kafər bəyinin qızı da öz sevgisi naminə 16 il sonra Beyrəyin öz yurduna qayıtmasına kömək edir – onu iplə hasardan endirib qaçırda bilir.

Hər iki əsərdə qəhrəmanların oğluna və oğlunun döyüş yoldaşlarına xəyanət motivi vardır. Çuğullayıb Dirsə xana öz oğlunu – Buğacı vurdurduqları kimi, Odisseyin oğlunu Penelopa məftunları məhv etmək istəyir, bunun üçün gəmi ilə silahlı dəstə də göndərirlər:

Penelopa ilə evlənmək üçün gələnlər çoxdur:
Tək Dulixi adasından əlli iki adam gəlib,
Hamısı gənc, əsilzadə, yanlarında altı nökər.
İyirmi dörd adlı-sanlı cavan isə Zamdan gəlib,
Düz iyirmi əyan oğlu gəlib Zakinf adasından;
Bizim yerli zadəgandan elçi düşən on ikidir. (557)

Onlar atası haqqında məlumat almaq üçün Troya müharibəsi qəhrəmanları ilə (Nestorla, Menelay və başqaları ilə) görüşə gedən Telemaxı qayıdan baş dəstəsi ilə birlikdə məhv etmək istəyirlər:

Onun əziz oğlunu da İtakaya qayıdanda
Həlak etmək istəyirlər. Atasının sorağıyla
Pilosa və Lakedemon diyarına gedibdir o. (426)

Həm «Odisseya»da, həm də «Dədə Qorqud»da qəhrəmanın qadını axıra qədər öz ərinə sədaqətlə yaşayır, ömrü ah-vayla keçir. 16 il sonra Beyrəyin qanlı köynəyini gördükdə Banıçiçək yenə şivən qoparır: «Tartdı, yaqasın yırtdı. Acı tırnaq ağ yüzinə aldı-çaldı. Güz alması kibi al yanağını yırtdı. «Vay, göz açub gördigim, könül verib sevdigim! Vay, al duvağım iyəsi! Vay, alnum-başım umudı, xan Beyrək!» –deyü ağladı». (58) Yaxud tanımadığı Beyrəyin suallarına Banıçiçəyin cavabı:

Beyrək gedəli Bam-bam dəpə başına çıqdığım çoq,
Qarğu kibi qara saçum yolduğum çoq.
Güz alması kibi al yanağım yırtdığım çoq.
Gələnlə gedəndən sorduğum çoq.
«Vardı, gəlməz bəg yigidim, xan yigidim Beyrək» - deyü ağladığım çoq.(65)

Penelopa Odisseyin gəlmədiyini görüb 20 il sonra yenə özünə ölüm arzulayır:

Zevsin qızı Artemida, ey qüdrətli pak ilahə,
Kaş bu saat tuşlayaydın oxunu düz ürəyimə!
Ya da güclü bir qasırğa məni yerdən ayıraydı,
Zil qaranlıq yollar ilə uzaqlara aparaydı,
Burulğanlı Okean-çay mənsəbinə tullayaydı! (600)

Yenə:
O yatağı gecə-gündüz çəkdiyim ah bürümüşdür,
O yatağı gözlərimdən axan yaşlar suvarmışdır.(565)
Ya ilahə Artemida oxla vurub öldürəydi,
Heç olmasa, yer altında görəydim mərd Odisseyi.(600)

Hər iki əsərdə ağaca müqəddəs varlıq kimi baxılır. Uruzu ağaca bağlayıb yandırmaq istəyirlər. «Mərə, kafər, aman! Tənrinin birliginə yoqdır güman! Qoun məni bu ağacla söyləşəyim!» deyə ağacı Məkkə ilə Mədinənin qapsı, Museyi-Kazimin əsası, böyük-böyük suların körpüsü, qara-qara dənizlərin gəmisi, Şahi-Mərdan Əlinin Düldülünün yəhəri, Zülfüqarın qəbzəsi, şah Həsənlə Hüseynin beşiyi adlandırır və ondan nicat diləyir:

Məni sana asarlar, götürməgil, ağac!
Götürəcək olursan, yigitligüm səni tutsun, ağac! (48)

Odissey isə Aid dünyasına (o biri dünyaya) gedir ki, öz evinə necə dönmək lazım gəldiyini müqəddəs ağacdan öyrənsin:

Odisseyin Dolonaya getdiyini dedi Fedon.
Gedibdir ki, İtakaya geri dönmək barəsində
Sirli palıd ağacından öyrənsin Zevs məramını:
Öyrənsin ki, öz evinə gizli getsin, yoxsa açıq? (592)

Hər iki əsərdə hadisələr əvvəlcədən yuxu vasitəsilə xəbər verilir. «Dədə Qorqud»da yuxu mənfi hadisəni, bədbəxtliyi, «Odisseya»da şad xəbəri çatdırır. Qazan xan oğlu Uruzu 300 igidi ilə yurdunda qoyub, bəylərlə ova gedir və yeyib-içib yatarkən dəhşətli yuxu görür: «Bilürmisən, qarındaşım Qaragünə, düşimdə nə göründü? Qara qayğılu vaqeə gördüm. Yumruğımda talbınan şahin bənim quşumı alur gördüm. Gögdən ildırım ağ ban evim üzərinə şaqır gördüm. Düm qara pusarıq ordımın üzərinə tökülü gördüm. Quduz qurtlar evimi dəlir gördüm. Qara dəvə ənsəmdən qarvar gördüm. Qarğu kibi qara saçım uzanır gördüm, uzanıban gözümi örtür gördüm. Biləgümdən on barmağımı qanda gördüm… Xanım qardaş, mənim bu düşimi yorğıl manna» - dedi». (44) Yuxu Qazan xanın evinin yağmalandığını, oğlunun, qadınının dustaq olduğunu xəbər verir.

Poemada isə Penelopa hələ tanımadığı, lakin macəralarını dinləyib söhbət etdiyi əri Odisseyə gecə gördüyü yuxunu danışır, o zaman danışır ki, hələ Odissey Penelopa məftunlarına silah qalldırmayıb və adi bir yolçu kimi tanınır:

Bir də, qərib, mən gördüyüm bir yuxunu şərh et mənə:
Gördüm ki, düz iyirmi qaz suda üzən buğdaları
Dənləyirlər. Mən tamaşa eyləyərək şadlanıram.
Birdən dağdan uçub gələn əyricaynaq nəhəng qartal
Hamısının boğazını üzüb atdı bir tərəfə.
Yerdə qaldı cəmdəkləri. Qartal yenə pərvazlandı.
Mən yuxuda çox ağlayıb inildədim…
Birdən qartal uçub gəldi, qondu damın dirəyinə,
İnsan kimi dil açaraq mənə toxdaq verib dedi:
-Adlı-sanlı İkarinin aqil qızı, ruhdan düşmə!
Gördüklərin yuxu deyil, baş verəcək həqiqətdir.(597)

Elə də olur və sonrakı gün Odissey Penelopa məftunlvarının cəmdəklərini otaqda sərili qoyur.

Banıçiçək ozanın Beyrək, Penelopa isə yad adamın Odissey olduğunu yoxlamaq üçün sınaqdan keçirir. Beyrək Banıçiçəyin qalxıb oynamasını tələb edir. Banıçiçək Beyrəyi tanımır və Qısırca yengəni, Boğazca Fatmanı oynamaq üçün qaldırıb onu başdan eləmək istəyir. Mümkün olmadıqda özü oynamalı olur. Beyrək onun barmağındakı üzüyü istəyir. Nəticədə sınaq üçün imkan yaranır. «Altun yüzükdə çoq nişan vardır. Altun yüzigi istərsən, nişanın söylə» dedi. Beyrək aydır:

Alan sabah, xan qızı, yerimdən turmadımmı?
Boz ayğırın belinə binmədimmi?
Sənin odan üzərinə sığın-keyik yıqmadımmı?
Sən məni yanına qağırmadınmı?
Sənin atunı mənim atım keçmədimi?
Ox atanda mən sənin oxını yarmadımmı?
Kürəşdə mən səni basmadımmı?
Üç öpüb, bir dişləyüb, altun yüzigi barmağına keçürmədimmi?
Sevişdigin Bamsı Beyrək mən degilmiyəm? – dedi.

Böylə digəc qız tanıdı, bildi kim, Beyrəkdir. Cübbəsilə, çuxasilə Beyrəgin ayağına düşdi». (65)

Penelopa da Odisseyə çox soyuq münasbət bəsləyir. Odissey təəccüb edir:

Düz iyirmi ildən sonra çətinliklə dönmüş əri
İnanmıram, başqa qadın belə soyuq qarşılaya.(632)

Odissey bütün Penelopa məftunlarını qırıb qurtardıqdan sonra da arvadının onu tanımadığını, qəbul etmədiyini gördükdə bir növ əsəbiləşir, yatmaq istədiyini bildirir.

Penelopa onu yoxlamaq istəyir, oğlu Telemaxa deyir:

Amma ki, o, Odisseysə, qayıdan o özüdürsə,
Onda biri-birimizi asanlıqla tanıyarıq,
Çünki elə əlamətlər var ki, yalnız biz bilirik.(631)

Ona görə də Penelopa xidmətçi kəniz Yevrikleyaya tapşırır ki, ona dəhlizdə yer salsın. Məqsəd sirli çarpayı barədə onun bir şey bilib-bilmədiyini yoxlamaqdır.

Onun bu göstərişi Odisseyi daha da haldan edir, o, güman edir ki, burda olmadığı müddətdə onun öz əli ilə düzəltdiyi çarpayını tərpədiblər, məcbur olur ki, çarpayının arvadı ilə ona məlum olan sirlərini söyləsin:

De, yerini dəyişdirən kimdir mənim çarpayımın?..
Bir sirri var – mən bilirəm, çünki mənəm düzəldəni!..

Çünki elə əlamətlər var ki, yalnız biz bilirik. (631)

Bildirir ki, onların yataq otağındakı çarpayını o özü düzəldib, iri zeytun ağacını kəsib, burğu ilə deşib, çarpayını ona bərkidib. Bir ayağı kötükdür, onu tərpətmək olmaz. Naxışı fil sümüyündən, qızıldan və gümüşdəndir. «Penelopa, nişanları budur həmin çarpayının!» (633)

Belə dedi, xanımın həm dizi əsdi, həm ürəyi,
Eşitdiyi nişanələr dəqiq idi başdan-başa. (633)

Hər iki əsərdə qəhrəmanı əvəz etmək istəyən düşmən qüvvə sınağa çəkilir. «Odisseya»da məsələ daha aydındır. 20 ildən sonra da ərinin gəlmədiyini görən Penelopa məcbur olub öz məftunlarına belə bir şərt qoyur: onu almaq istəyən şəxs Odisseyin ox-yayını götürüb, oxu dalbadal düzülmüş 12 baltanın sap yerindən keçirməlidir:

Allahsifət Odisseyin böyük yayı bax burdadır,
Kim o yayın kirişini asanlıqla darta bilsə,
Bu oxu on iki balta yarığından düz keçirsə,
Mən bu varlı, əziz, qəşəng ər evini tərk edərək
Həmin yarış qalibinin arxasınca gedəcəyəm! (609)

Qapı tərəfdə bir küncdə oturmuş Odissey (hələ tanınmır) özü baltaların tiyəsini eyni səviyyədə yerə basdırır, diblərini torpaqla doldurur, ayaqlayıb bərkidir ki, yıxılmasınlar. Lakin Penelopa məftunlarından heç biri onun yayının kirişini çəkməyi, yayı dartmağı bacarmır. Hətta kirişi qızdırıb yağlasalar da, dartıb əyə bilmirlər. Dilənçi vəziyyətdə qapı ağzında əyləşmiş Odissey də özünü sınamaq istədiyini bildirir. Lakin qonaqlar bunu təhqir sayırlar. Odisseyin oğlu Telemaxın və Penelopanın israrı ilə ox-yayı ona da verirlər. Odissey yayı dartıb oxu buraxır və baltaların sap yerindən keçirir. Eyni zamanda bu yolla öz ox-yayını da əldə etmiş olur.

«Dədə Qorqud»da isə məsələ pozulmuşdur. Eyni mərasim səbəbsiz icra edilir, Banıçiçəyin heç bir tələbi olmadan keçirilir. Görünür, burada iddiaçının tək olduğu nəzərə alınmışdır. Əsas şərt Beyrəkdən xəbər gətirilməsi ilə məhdudlaşdırılmışdır ki, bunu da Yalançı oğlu Yalançuq yerinə yetirir. Amma oxatma sınağı keçirilir və Oğuz igidləri Banıçiçəyi əldə etmək üçün yox, öz igidliklərini nümayiş etdirmək üçün oxatma yarışı keçirirlər. Dəvə çuvalını bədəninə keçirmiş Beyrək məclisə gəlir. Oğuz igidləri bəyin – Yalançuğun üzüyünü nişan qoyub ox atırlar. Budaq, Uruz, Şir Şəmsəddin və başqa Oğuz igidləri ox atdıqda Beyrək «Əlün var olsun!» deyir, göygü atanda «Əlin qurusun, parmaqların çürisün, hey, tonuz oğlı tonuz, - deyirdi, - göygülərə qurban ol!» - deyirdi». Nəhayət, Yalançuq əsə-biləşir, öz ox-yayını ona verir ki, «mənim yayımı çək, yoxsa şimdi boynın ururam». Beyrək yayı çəkir, yay paralanır. Yalançuq Beyrəyin yayını

gətirməyi tələb edir. Beyrək öz yayını gördükdə ağlayır və yayı çəkib oxu buraxır, Yalançuğun üzüyünü paralayır.(63)

Burada bir neçə məntiqsizlik var: Bu yarış nə məqsədlə keçirilir? Nə üçün göygünün üzüyünü nişan qoyublar? Və sonra Beyrək «göygülərə qurban ol!» deyir - toy bir nəfərin olduğu halda, «göygü» sözü niyə cəm haldadır? Belə çıxır ki, Dəli Qarcar da, Şir Şəmsəddin də, Uruz da evlənirmiş bu toyda, bunların hamısı kürəkən imiş. Amma belə deyil.

Yenə birinci suala haqq qazandırmaq olar: toydur, şənlikdir, ona görə də Oğuz igidləri at çapır, ox atır, igidlik göstərirlər. Sonrakı suallara cavab tapmaq olmur. Süjet pozulub. «Odisseya» əsərində kürəkən olmaq, Penelopa ilə evlənmək istəyən çoxdur, burada isə təkdir. Balta əvəzinə üzükdür, bu, üç min il əvvəlin deyil, sonrakı dövrün «yarışı çətinləşdirməsidir». Lakin məhz nə üçün göygünün üzüyü nişan qoyulub? – bunu da anlamaq olur - istəmirlər ki, Yalançuq Banıçiçəklə evlənsin, heç kəsin ürəyindən deyil. Və ya bəlkə o özü yarışa başlamaq, şənlik yaratmaq üçün bu vasitəni seçib. Bəs «göygülərə qurban ol!» nə deməkdir? Üslub pozulub. Bizə elə gəlir ki, bu, ən qədim süjetin qalığıdır. Balta üzüklə, çox adam tək adamla əvəz olunub, amma iddiaçı çoxluğu mexaniki olaraq saxlanılıb.

Hər iki qəhrəmanın ox-yayı da başqalarının ox-yayından fərqlidir. Hər adam onların yayını dartıb-əymək qüdrətinə malik deyil. Və hər iki qəhrəman ox-yayını əlinə alarkən dəruni hisslər keçirir, düşüncələrə dalır, onu çox asanlıqla idarə edir.

Hər iki əsərdə sədaqətli çobanlara qayğı var. Qazan xan ailəsini, mal-dövlətini xilas etmək üçün gedəndə Qaraca çobana deyir: «Allah mənim evimi qurtaracaq olarsa, səni əmiraxur eyləyəyin» - dedi. İkisi bilə yola girdi». (46) Və düşmən üzərində qələbədən sonra sözünü yerinə yetirir də: «Qaracıq çobanı əmiraxur elədi. Yedi gün, yedi gecə yemə-içmə oldı» (50)

Odissey isə Penelopa məftunları ilə döyüşə başlamamış sədaqətli çobanları Filotilə və Yevmeyə özünü tanıdaraq deyir:

Ey naxırçı və ey çoban, heç bilmirəm deyim sizə,
Ya deməyim öz sözümü. Ürəyim əmr edir ki, de!
Bilin ki, o – mən özüməm! Başıma çox bəla gəlib…
Allahların köməyilə yağıları məhv eləsəm,
Sizi dərhal evləndirib mal da, mülk də verəcəyəm
Öz evimin lap yanında sizə də ev tikiləcək.
Telemaxın qardaşı və dostu sizi biləcəyəm. (612)

Hər iki dövrdə köləyə bu cür münasibət uyğun və səxavətlidir.

Həm «İliada»da, həm də «Dədə Qorqud»da oğul həsrəti ilə beli bükülmüş ata surəti vardır.

Beyrəyin gəldiyini atasına xəbər verirlər. Əvvəl gəlini Banıçiçək, ardınca da Qazan xan Baybörə bəyə şad xəbəri çatdırır. Sevinc içərisində olan Baybörə deyir: «Oğlım idigin ondan biləyim, sırça barmağını qanatsun, qanını dəstmala dürtsün, gözimə sürəyin, açılacaq olursa, oğlım Beyrəkdir!» - dedi.

Zira ağlamaqdan gözləri görməz olmış idi. Dəstmalı gözinə silcək, allah-təalanın qüdrətilə gözi açıldı. Atası-anası güldilər. Beyrəgin ayağına düşdilər». (66)

Odissey mülkünü və ailəsini xilas etdikdən sonra atası Layerti görməyə gedir. Vəziyyətini öyrənmək üçün əvvəl özünü tanıtmır:

Atasının ürəksıxan görkəmini - onu tamam
Əldən salmış qocalığı görən kimi mərd Odissey
Uca armud ağacının altda durub çox ağladı. (643)

Sonra tanışlıq verir. Beyrəyin atası kimi, qoca Layert də inanmaq üçün şərt qoyur:

Doğrudan da, əgər oğlum Odisseyin özüsənsə,
Bir nişanə göstər mənə ki, yəqinlik hasil edim. (645)

Odissey həm ayağındakı qaban dişi əhvalatını danışır, həm də atasının bir vaxtlar bu böyük bağda onun üçün ayırmış olduğu ağacları bir-bir sadalayır:

Onda mənə on üç armud, on alma və qırx da əncir
Ağacı bəxş eləmişdin, üstəlik də il boyunca
Təzə-təzə üzüm verən əlli tənək bağışladın…
Belə dedi, Layertin həm dizi əsdi, həm ürəyi.(645)

Göründüyü kimi, şərtlər məzmunca başqa-başqa olsa da, mahiyyət birdir.

Hər iki əsərdə əsas döyüş alətləri qalxan, ox və qılıncdır; geyim, zireh əsasdır. Amma «İliada»da nizə döyüşü daha geniş təsvir edilir. Hər iki əsərdə döyüş üsulları da əksərən eynidir. Bayındır xanın vəziri Qazılıq qoca Düzmürd qalasına gəlib Arşun oğlu Dirək təkura hücum çəkir: «Qazılıq qoca anı gördiginləyin yel kibi yetdi, yeləm kibi yapışdı. Kafərin ənsəsinə bir qılıc urdı. Zərrə qədər kəsdirəmədi. Növbət kafərə dəkdi. Ol altmış batman gürzlə Qazılıq qocaya dəpərə tutıb çaldı. Yalan dünya başına tar oldı. Düdük kibi qan şorladı..» (94) «İliada»da:

Menelaya cumdu birdən Pilemenid Qarpalion:
O, yaxından Menelayın qalxanına nizə vurdu;

Ancaq qalxan dəlinmədi.
Mərd Menelay arxasından onu oxla yaraladı…
Qara qanı axdı getdi, altındakı yer islandı.(201-202)

Hər iki əsərdə ibtidai silah növü olan sapanddan istifadə edilir. Qaraca çoban kafir qoşununu sapandla məhv edir və bir qədər də şişirdilmiş halda – daş qurtaranda sapanda qoyun, keçi qoyub atır. «İliada»da sapand ehtiyatdadır, döyüşdə daşla vuruş güclü məhvedicilik qüvəsinə malikdir. Lakin sapanddan bir dəfə əsgər yoldaşın yarasını bağlamaq üçün istifadə edildiyi qeyd edilmişdir:

Akenor tez o nizəni çəkib onun yarasından
Sıx toxunmuş yun sapandla sardı onu möhkəm-möhkəm. (200)

Poemalarla dastanın təsvir və təhkiyə üsullarında yaxınlıq çoxdur. Homer müqayisələrdən bir bədiilik vasitəmsi kimi çox geniş istifadə etmişdir. Saysız obrazlı müqayisələrə müraciət etmişdir.

Hektor, əldə möhkəm qalxan, irəlidə yeriyirdi:
Ölüm saçan ulduz necə gah buludlar arasından
Parlar, gah da gözdən itib yox olarsa zaman-zaman,
Hektor da gah birdən-birə ön səflərdə, gah arxada
Zahir olub qoşunlara sərəncamlar verməkdəydi.
Ulu Zevsin şimşəyitək parlayırdı hər bir yanda.(156)

Eyni təsvir üsulu «Dədə Qorqud»un da orijinal xüsusiyyətidir: «Qaraqucın oynaddı Uruz, kafərin sağına at dəpdi. Sağlı-sollı kafəri xub tağıtdı. Sanasan kim, tar yolda tolu düşdi. Ya qara qazın içinə şahin girdi. Kafərin ucını basdı, tağıtdı…» (71) Bu cür təsvir Homerdə bir sistem şəklindədir və çox zəngindir.

Hər iki əsərdə qəhrəmanın oğlu döyüş sınağından keçirilir. Hər iki əsərdə gənc varislərin ordusu ona sədaqətlə xidmət edir və s.

Yazıya alınma tarixləri arasında uzun zaman fərqi olsa da, hər iki əsərdə ictimai-siyasi quruluş da, demək olar ki, eynidir. «Dədə Qorqud»da bəylər öz mülklərini idarə edirlər və vahid bir xana – xanlar xanı Bayındıra tabedirlər. Hər kəsin öz tac-taxtı var. «Dastanda bütün qəbilələri, zəif bağlarla olsa da, birləşdirən xandır (Bayındır xan).Lakin buna baxmayaraq, hər qəbilənin başında qəbilə böyüyü, bəy dayanmışdır. Bəylər xana tabe olsalar da, yenə sərbəstliklərini mühafizə edirlər. Xarici düşmənə qarşı və yaxud basqın zamanı qəbilələr asanlıqla birləşir. Qəbilə başçıları seçilmir. Onların başçılığı nəsli və ənənəvi gedir… Burada hər kişi əsgərdir, lazım olduğu vaxt silahlanır, hətta bəzən qadınlar da silahlanıb vuruşurlar… Dastanda quldarlığın çox zəif əlamətləri vardır… qul hələlik işçi qüvvəsi

deyildir… Əsərin mərkəzində müəyyən qəbilələr heyəti kimi yaşayan bir xalq var». (15; 24-25, 36)

Oğul həsrətilə çırpınan Baybörə bəy Bayındır xanın ulu məclisində birdən-birə ağlamağının səbəbini belə izah edir: «Bəglər, tacım-təxtim içün ağlaram. Bir gün ola, düşəm öləm, yerimdə-yurdımda kimsə qalmıya».(52) Ölkənin mühafizəsi, qənimətlər əldə edilməsi Bayındırın kürəkəni baş sərkərdə, vitse kral Qazan xana mənsubdur. İç Oğuz, Taş Oğuz iki tayfadır, hər tayfa qəbilələrdən ibarətdir və bir ittifaqda yaşayırlar. Döyüş boylarının sonunda qəbilə başçıları öz titulları ilə bir-bir qeyd olunur, sadalanır.

Eyni quruluş axeylərdə (yunanlarda) və troyanlarda da vardır. Vahid hakimiyyət var, padşah-hökmdar vardır, lakin onun ölkəsi qəbilələr ittifaqından ibarətdir. Məsələn, Troya qoşunlarında çox müxtəlif qəbilələr iştirak edir, onlar müttəfiqdirlər, ümumi hökmdar İlion hakimi Priamdır, baş sərkərdə isə Hektordur – Priamın oğlu. Yaxud axeylilər də müttəfiq qəbilələrin birliyindən ibarətdir, baş hakim Aqamemnondur, əsəs sərkərdə isə Axillesdir.

Axeylilər:
Say-hesabsız qəbilələr dəstələrlə, axın-axın
Axışırdı camaatın yığıncağı olan yerə. (27)

Yaxud axeylilərə əsir düşmüş Yevmedoğlu Dolon Troya müttəfiqlərini belə sayır:

Karilərin, əyri yaylı peonların, leleqlərin
Pelaskların qoşunları sahil boyu yerləşiblər.
Fimbranın yaxınında likyalılar, misililər,
At ram edən frakyalılar, mərd meonlar məskən salıb…
Odur, yeni gəlmiş qoşun – frakyalılar kənardadır (151) və s.

Axeylərin və troyanların dini görüşləri qədim şumer dini görüşlərinə uyğundur: çoxallahlılıqdır və allahların ulu əcdadının Okeanın dibində olduğu təsəvvürü vardır. Zevsin bacısı və arvadı Hera belə deyir:

Bərəkətli dünyanın ən son həddinə gedirəm ki,
Allahların əcdadları Okeanla Tefiyaya
Dəyim. Axı onlar məni evlərində bəsləmişlər… (214)

Şumerlər də göy allahı An və Yer allahı Kinin okean sularının dərinliyində bütün varlığın «böyük anası» ilahə Nammudan doğulduğu fikrində olmuşlar. (3, 144)

«Dədə Qorqud»da isə din dəyişmiş, hadisələrin təkallahlılığa uyğunlaşdırılmasına cəhd edilmiş, əsərə bir qat islam örtüyü çəkilmişdir. Lakin yenə uyğun cəhətlər qalmışdır. Axeylilər və troyanlar döyüşqabağı allahların şərəfinə şərab səpir, dua edir, qurban kəsirlər. Hektorun sözləri:

Əziz ana, yox, sən mənə şirin şərab vermə hələ,
Şərab məni sərməst elər, cürətimi alar əldən.
Belə kirli əllərimlə Zevsə şərab səpmərəm mən
Qanlı-tozlu əllər ilə buludyığan ulu Zevsə
Dua etmək, əziz ana, bilirsən ki, layiq deyil.
Sən yığ nəcib arvadları, tez apar o qurbansevən
Afinanın məbədinə…
Nəzr elə ki, hələ işə qoşulmamış on iki baş
Cöngə qurban verəcəksən, qoy o bizə rəhm eləsin… (96)

«Dədə Qorqud»da dini görüş bu şəkildə redaktə edilmişdir: «Qalın Oğuz bəgləri arı sudan abdəst aldılar. Ağ alınlarını yerə qodılar. Eki rükət namaz qıldılar. Adı görklü Məhəmmədi yad gətürdilər. Gumbur-gumbur nəqaralar dögüldi. Bir qiyamət savaş oldı, meydan dolı baş oldı». (66)

Lakin Oğuz igidləri də daim şərabın itisindən ləzzət alırlar.

Poemalarda Homerin qəribə mənalandırma üsullarından biri budur ki, hadisələrin hər birinin törədicisi allahlar hesab olunur, lakin fikirləşirsən ki, real həyatda bu hadisə elə belə də olmalı idi. Axillesin yaxın dostu igid Patrokl üç dəfə həmlə edərək troyalılardan xeyli adam qırır, dördüncü həmlədə sərpuşu başından düşür, gözləri dumanlanır – Homer bunun Feb-Apollon tərəfindən edildiyini, Apollonun yumruğu ilə gücdən düşdüyünü, nəticədə Yevforb adlı əsgərin nizəsilə yaralandığını, Hektorun nizəsi ilə yerə sərildiyini təsvir edir. Lakin hadisənin özü də təbiidir. Hər tərəf troyanlardan ibarətdir. Gözünü qan örtmüş kimi hücum çəkən Patrokl həqiqətdə də nizədarlardan birinin nizəsilə həlak ola bilərdi. Oğlu Uruzu xilas etmək üçün Qazan xan qanlu Qara Dərvənddə üç dəfə təkbaşına kafərə hücum çəkir: «Dönə-dönə bir zəman yaxşı savaş elədi, kafəri alam,- dadi. Alamadı. Bir saətdə kafərə üç kərrə at dəpdi. Nagah gözi qapağına qılıc toqundı. Qara qanı şorladı, gözinə endi. Özin sarb yerlərə saldı. Görəlim indi yaradan neylər…» (76) Göründüyü kimi, Qazanın məhvi üçün real zəmin var. Lakin yaradanın köməyi öz işini görür: elə bu anda qırx incə belli qızla Burla xatun, dalınca da Oğuz igidləri özünü yetirir, Qazan və Uruz xilas edilir.

Allahların hadisələrə münasibəti ilə bağlı daha uyğun detallar var. Məsələn, poemalarda fani insan allaha qurbanlar vəd edir, ondan nicat diləyir, lakin allahlar onun diləyini qəbul edə də bilir, etməyə də bilirlər. Axilles küsüb döyüşə getmir, vəziyyətin ağırlığını görüb dostu igid Patroklu döyüşə göndərir və göylərə üz tutaraq Zevsə yalvarır ki, onu troyalılara

qəhrəman kimi tanıtsın və həm də sağ saxlasın. Lakin Zevs xahişin birini qəbul edir, birini etmir:

Belə deyib yalvardı o. Zeves qəbul etdi bunu,
Ancaq igid Axillesin rədd etdi bir xahişini:
Düşmənləri qovmaqda o, kömək etdi mərd Patrokla,
Ancaq onu sağ qaytarmaq xahişini rədd elədi… (242)

Odur ki ölüm ayağında Patrokl Hektora üz tutaraq deyir:

Bəd taleyin hökmü ilə məni əvvəl Feb-Apollon,
Sonra Yevforb vurdu, sənsə üçüncüsən.(255)

Allahla bu cür davranış dastanın çox qədim boylarından olan «Dəli Domrul» boyunda daha aşkardır və həmin qədim ölümsüzlər – fanilər münasibətini bu boy daha yaxşı mühafizə etmişdir. Dəli Domrulun əzrayıl haqqında sözləri allaha xoş gəlmir: «Həq təalaya Domrulun sözi xoş gəlmədi».(79) və əzrayıla onun canını xırlatmağı tapşırır. Can verib, can alanın allah olduğunu bildikdən sonra Domrul allaha üz tutaraq yalvarmağa başlayır və bu zaman onun sözləri allaha xoş gəlir: «Allah təalaya Dəli Domrulun burada sözi xoş gəldi». (81) Can yerinə can bulmadıqda allaha üz tutaraq «Alursan, ikimüzün canın bilə alğıl» sözləri də allaha xoş gəlir («Həq təalaya Dəli Domrulun sözi xoş gəldi», 83) və ona uzun ömür bəxş edir. Bunlar, fikrimizcə, həmin çoxallahlılıq təfəkkürünün izləridir.

V.M.Jirmunski «Dəli Domrul» boyunda iki süjetin birləşdiyini qeyd etmişdir: Domrulun əzrayılla vuruşması, ərin ruhunun əvəzinə arvadın ruhunun verilməsi. Müəllif birinci süjetə yunan mifologiyasından, ikincisinə yeni yunan mahnılarından misallar vermişdir. M.Seyidov bu süjetlərin türk xalqlarında qədimdən olduğunu qeyd etmiş, məsələn, noğaylardakı Çora-Batır əfsanəsinin «Dəli Domrul» boyunun az qala eyni olduğunu göstərmişdir. Lakin M.Seyidov Kiçik Asiyada həmin mövzunun yunan mifləri ilə qarşılaşdığını, çarpazlaşdığını da güman etdiyini bildirmişdir. (21,10-11)

Basatın hər dəfə Təpəgözün kələyindən xilas olarkən «Tənrim qurtardı» (102) deməsi də bu qəbildəndir. Qazanın dustaq olduğu və Uruz tərəfindən azad edildiyi boyda təkur arvadını Qazan inandırır ki, quyuda onların ölülərinin yeməyini əllərindən alıb yeyir və onların yorğa ölülərini minir. Bu təfəkkürün özü də ibtidai təfəkkür nümunəsidir. Beləliklə, hər nə qədər islama keçilmiş olsa da, bir sıra boylarda qədim dini düşüncənin izləri aydın şəkildə qalmışdır. Bu boyda Qazanın «tənri mənəm» deyən asiləri, «yonma ağac tənrili» kafəri lağa qoyması da hadisələri daha uzaq keçmişlə bağlayır. (118-119)

Dastandakı «Ölən adam dirilməz» hikməti «İliada»da da vardır: «Ölən bir də dirilməz, sən öz canının hayına qal!» (368) Elə təsvirlər var ki,

bunlar çox-çox qədim izləri mühafizə edir. Məsələn, Yegnək Qazılıq qocanı Düzmürd qalasından xilas etdikdən sonra ozan ata ilə oğulun sevincini belə təsvir edir: «Babasilə Yegnək gizlü ***yaqa tutuban yiləşdilər***. Eki həsrət bir-birinə bulışdılar. ***İssüz yerin qurtı kibi ulaşdılar***…» (97)

Verdiyimiz bu nümunələrdən başqa, təbii ki, yenə uyğun detallar göstərmək mümkündür. Amma oxucu görməlidir ki, bunlar təsadüfi oxşarlıq deyildir. Bunlar minilliklər boyu vahid mənbədən hər bir xalqın özünə məxsus götürdükləridir. Ağla bu da gələ bilməz ki, bu cür süjet eynilikləri biri-digərindən köçürmənin nəticəsidir. Sadəcə olaraq bunlar məntiqi şəkildə aydın göstərir ki, oğuzlar və axeylilər çox qədim dövrlərdən yanaşı yaşamış, bir-biri ilə son dərəcə yaxın münasibətdə olmuşlar. Axeylilər troyanlara qarşı ittifaqla vuruşduqları halda, onların qonşuluğundakı frakiyalılar troyalıların müttəfiqi idilər. (Frakiyalı igidlərin sərkərdəsi Akamant öz dəstəsi ilə troyalılar tərəfdə vuruşurdu -79).

Artıq elmi ədəbiyyatda troyalıların türk olduğu sübut olunmuşdur. Lakin onların müttəfiqləri qarışıq qəbilələrdən ibarət idilər. Müttəfiqlər müxtəlif olduğu kimi, dilləri də müxtəlif olmuşdur:

Priamın paytaxtında çoxdur bizim müttəfiqlər,
Burda çoxdur qəbilələr, ***hərənin də öz dili*** var. (43)

Və ya:

Troyanın qoşunu da eynən belə bağrışırdı.
Ancaq hərə başqa cürə çığrışaraq danışırdı:
Qarışmışdı bir-birinə başqa-başqa xalqın dili… (65)

Aydın olur ki, troyalılar yekcins olmamışlar. Lakin, şübhəsiz, onların əsas kütləsi türklərdən ibarət olmuşdur, çünki Priamın xalqı Troyada üstünlük təşkil etmişdir. Bu cəhətdən aşağıdakı misralarda «barbar dilli Karlar» ifadəsi çox maraqlıdır:

Barbar dilli ***Karların da*** sərkərdəsi mərd Nast idi.
Onlar Milet şəhərində dik Mendra sahilində
Bol meşəli Ftirosla qarlı Mikal dağlarında yaşardılar.(44)

Şumerlər özlərini ***kar-rir***, yəni «qarabaşlar» adlandırırdılar. Bu da *Kenqir- şumer* sözünün bir oxunuş variantı idi. ***Kar-r-ir*** sözündə «qara» sözü aydın seçilir.(3,60) Şumer tayfaları e.ə.23-cü əsrdə Akkad istilasından sonra ətraf ərazilərə dağılmışdılar və onlar Troya ətrafına da asanlıqla gələ bilərdilər.

Eyni zamanda, axeylilər də müttəfiqlərdən, qəbilələr ittifaqından, müxtəlif dilli qəbilələrdən ibarət olmuşlar; məsələn, təkcə Krit adası sakinlərinin təsvirinə baxaq:

Tünd suların qucağında Krit adlı bir ada var;
Çox zəngindir gözəlliyi, vəsfə gəlməz həmin ada.
Şəhərlərin sayı doxsan, xalqı saysız-hesabsızdır.
Neçə dilə rast gələrsən. Axeylilər, kidonlular,
Eteokrit tayfasına rast gələrsən o adada;
Düz üç dori sülaləsi, pak ***pelask*** tayfası var.(589)

Buradakı pelaskların da türk tayfalarından olduğu məlumdur. Lakin bu hələ axeylilərin hamısı deyildir.

Bütün bunlar göstərir ki, e.ə. 1260-1240-cı illərin hadisələrindən bəhs edən «İliada» və «Odisseya» əsərləri ilə bizim 1300 illiyini qeyd etdiyimiz «Kitabi-Dədə Qorqud» yaşıddır, eyni dövrdə, eyni real və mifik hadisələr zəminində yaranmış dastanlardır. Lakin poemaları yunanlar yazıya alıb saxlamışlar, təbii ki, əlavələr də etmişlər, dastanı isə ya vaxtında yazıya almamışlar, yaxud da vaxtaşırı üzərində işləmiş, ilkin formadan fərqli bir formaya salmışlar. Hətta hiss olunur ki, bu və ya digər boyu atmış, yeni boylar yaratmışlar. Və ya obrazların adlarını, bəlkə arxaik rəng aldığını görərək lap səciyyəsini də dəyişmişlər. Nə qədər dəyişmiş olsa da, yenə izlər qalmışdır. Məsələn, özü allah Poseydonun oğlu olan Təpəgöz və təpəgözlər allahları tanımadıqlarını bildirir:

Nə o qalxantutan Zevsə, nə də başqa allahlara
Biz taygözlər baş əymərik, biz onlardan çox üstünük! (472)

Bu, «Dədə Qorqud»da Dəli Domrulun əzrayılı tanımamasına bənzəyir. Amma nəzərə almalıyıq ki, dastanın üzərində işləyənlər onu zəmanəyə uyğunlaşdırmaq üçün politeizmdən əl çəkməli, təkallahlılığa çevirməli idilər. Və hələ burasını da bilmirik ki, onu əvvəlcə xristianlığa uyğunlaşdırıb, sonra islam dinini hopdurmuşlar, yoxsa birbaşa islamlaşdırmışlar. Dirsə xanın xüsusi süvarisi olan qırx namərd xanın min nəzir-niyazla dünyaya gətirdiyi yeganə oğlu Buğacı atasının gözündən salmaq və öldürtmək üçün anası ilə yaxınlıq etdiyini söyləyirlər: «Sən var ikən av avladı, quş quşladı. Anasının yanına alub gəldi. Al şərabın itisindən aldı, içdi. Anasilə söhbət eylədi, atasına qəsd eylədi…» (37) Doğrudur, oxucu bilir ki, bu, iftiradır, amma, görünür, ola bilən haldır ki, dastana daxil edilib. Bu, əşirət dövrünün xüsusiyyətidir, lakin Homerdən sonra da bəzi xalqlarda davam etmişdir. Məsələn, İran şahı Kiruş (e.ə.VI əsr) iki bacısının ikisi ilə də evlənmişdi. Homer troyalılarda və axeylərdə belə bir adət təsvir etməmişdir. Amma

Olimp allahlarında var, məsələn, Zevsin arvadı Hera həm də onun bacısıdır. Heç şübhəsiz, bu epizod dastanı ən qədim dövrlərlə bağlayır.

Yaxud həm axeylilər, həm də troyalılar döyüşqabağı və ya başqa bir çətinlikləri olduqda allahların şərəfinə qurbanlar verirlər, çoxlu mal-heyvan kəsir, təpə kimi ət yığırlar:

Döyüşlərdə sağ-salamat qalmaq üçün edib dua,
Hərə qurban nəzr elədi öz əbədi allahına…
Qəhrəmanlar dua edib qurbanlara dən səpdilər,
Sonra bir-bir boğazlayıb tez soydular hamısını.
Budlarını doğrayaraq piy qatına bürüdülər,
Parça-parça ət düzdülər hər birinin üzərinə.
Quru çırpı tonqalında budlarını yandırdılar,
İçalatı şişə çəkib bişirdilər od üstündə.
Budlarını yandıraraq içalatı yeyib, sonra
Qalan əti doğrayaraq şişə çəkdi bir-bir onlar.
Oda qoyub bişirdilər, sonra şişdən çıxardılar,
İşi başa vurub, böyük bir qonaqlıq düzəltdilər,
Hamı bol-bol yedi-içdi, ac qalmadı heç bir nəfər. (34)

«Dədə Qorqud»da:

«Dirsə xan… ulu toy elədi, hacət dilədi. Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırdırdı. İç Oğuz, Taş Oğuz bəglərin üstinə yığnaq etdi. Ac görsə, toyurdı. Yalın görsə, tonatdı. Borcluyı borcından qurtardı. Dəpə kibi ət yığdı. Göl kibi qımız sağdırdı. Əl götürdilər, hacət dilədilər…» (35) Beyrək boyunda Banıçiçəklə Beyrəyin də Oğuz ağsaqqallarının duası ilə doğulduğunu görürük və s.

«İliada»da əsas qəhrəmanları çox zaman allahlar xilas və ya məhv edir. Hektorla Axillesin döyüşündə Axilles nizəsini atır, nizə Hektorun başı üzərindən keçib torpağa sancılır, ilahə Afina cəld nizəni götürüb Axillesə qaytarır. Hektor nizəsini atır, Axillesin allah Hefest tərəfindən hazırlanmış beş qat qalxanının üçüncü qatında – qızıl qatında ilişib qalır və nizə ucluğu bu qatı keçə bilmir. Hektor cəld yaxın yoldaşı Deifobdan nizə istəyir, amma görür ki, o yoxdur, başa düşür ki, gözünə görünən ilahə Afina imiş, Deifob surətində onu arxayın salıb aldadırmış. (331) Yaxud Eneylə Axillesin döyüşündə yenə Axillesin nizəsi boş gedir. Lakin o, cəld qılınca əl atır. Poseydon Eneyin ölümünü istəmir, Zevsə müraciət edir. Axillesin gözlərini dumanladıb Eneyi aradan çıxarırlar. (305-306) «Dədə Qorqud»da atası tərəfindən oxlanmış Buğacı Xızır xilas edir: «Boz atlu Xızır oğlana hazır oldı. Üç qatla yarasın əlilə sığadı: «Sana bu yaradan, qorxma, oğlan, ölüm yoqdur. Tağ çiçəgi anan südilə sənin yarana məlhəmdir»,-dedi, qaib oldı». (39) Doğrudur, burada allah peyğəmbərlə əvəz olunmuşdur, lakin məlumdur ki, bu, sonrakı dövrün nailiyyətidir – dinin özü dəyişmişdir. Yaxud Dəli Qarcar Dədə Qorqudu qılınclamaq istəyərkən Dədənin allaha yalvarması,

Qarcarın qolunun quruması eyni tipli hadisələrdəndir. Qazan xanın Uruzu xilas etmək üçün tanrıdan hacət diləməsi və çətin vəziyyətdə tanrının ona kömək göndərməsi – Oğuz igidlərinin özlərini yetirməsi və s.

Troyanı və troyalıları Homer «gözəl, abad Troya», (209) «atbaz Troya», (303) «yeyin atyetirən troyanlar», (71) «atları bol Troya» (81) sözləri ilə məhəbbətlə təsvir etmişdir. At məsələsi daha çox saklar-skiflərlə bağlı məsələdir. Eyni zamanda «Dədə Qorqud» qəhrəmanlarının da nicat vasitəsi atdır. At Oğuz ərlərinin diriliyidir. Qazan xan «Qonur atın iyəsi» olmaqla fəxr edir. «Ata bağlılıq, atı sevmək, atı həyat dostu bilmək, başqa sözlə, atı fetişləşdirmək bütün Azərbaycan qəhrəmanlıq dastanlarına xas olduğu kimi, «Dədə Qorqud» dastanında da əsas yer tutur».(15,26)

Şair «Troyanın uzunpaltar qadınları» ifadəsini işlədir. (108) Bu da sak-skif geyiminin mühüm bir nümunəsidir.

Homer döyüşən tərəflərə humanist münasibət bəsləyir, mütəfəkkir şair, demək olar ki, tərəfgirlik etmir. Lakin ədalətsizlik həmişə olub. On ilə yaxın bir müddətdə Troyanı mühasirədə saxladıqları halda, axey qəhrəmanlarından biri özlərini mərdliklə müdafiə edən troyalılar haqqında «Ey qırğından gözü doymaz, sərt, həyasız troyanlar!» (201) kimi sözlər işlədir.

Hər iki əsərdə qonşu tayfa qadın və qızlarını əsir edib qul kimi işlətmək bir qaydadır. Hər iki əsərdə igidlər daim al şərabdan istifadə edirlər.

Bunları – bu uyğun cəhətləri bəlkə artırmaq da olar. Lakin o baxımdan, o tarixi səviyyədən nəzər saldıqda hiss edirsən ki, dastanı işləyə-işləyə solğunlaşdırmışlar. Epizodlarda müasirləşdirmələr aparmışlar. Dili də dəyişmiş, dini də dəyişmişdir. Lakin daim köklü türk dilində olmuş və türk varlığını saxlamışdır. Fikrimizcə, onun başdan-binadan mənzum olduğunu iddia edinlər doğru fikirdədir (biz bir vaxt bu fikri inkar etmişik). Və çox güman ki, bu dastan da iki hissədən ibarət olmuş, biri itib-batmışdır. Homerin əsərləri və bizim dastan eyni miflərdən, eyni tipli qarət döyüşlərindən, qəbilələrarası müharibələrdən bəhs etsə də, orijinal olmuş, yunan və türk təfəkkürünə uyğun yaradılmışdır.

Bir cəhəti də qeyd etmək olar ki, bütün bu müqayisələrlə yanaşı, Homerlə Dədə Qorqudun özünü də müqayisə etmək olar. Dədə Qorqudun neçə yerdə qəbri olduğunu güman edirlər. Bunlar doğru olmasa da, bir şeyi təsdiq edir ki, Homer kimi, o da bütün Şərqi gəzib dolaşmış, belə bir dastan yaradaraq aləmə yaymışdır. Bu cəhəti hələ vaxtilə Əli Sultanlı da düşünmüş və yazmışdır: «Hər halda deyilənlərdən belə bir nəticə çıxarmaq olar ki, Dədə Qorqud dastanın ilk yaradıcısıdır. Onun ilk nüvəsini, nəğmələrin rüşeymini o qoşub söyləmişdir. Bu ədəbi nüvənin həcmini, ifadə xüsusiyyətlərini, bədii vəznini indi elm aləmində müəyyənləşdirmək qəti şəkildə mümkün deyildir».(15, 11) Müəllif yenə deyir: «…Dədə Qorqud» dastanının yaranış kökləri çox dərinlərə gedir. Bu köklər öz

mövcudiyyət qidasını xalqın xəyallarından, əsatir və əfsanələrindən, xalqın yaradıcılıq dühasından almışdır».(15, 34)

Biz poemalarda türklərin axeylər və başqa dil daşıyıcıları ilə bir dövrdə, yanaşı yaşadıqlarını, yaxın əlaqə və münasibətdə olduqlarını göstərən kifayət qədər dil faktlarını da qeyd edə bilərik.

Homerin təsvirlərindən aydın olur ki, dillər çoxdur. Bu da hiss olunur ki, təsvir edilən obyektə hər tayfa, hər qəbilə öz dilində ad vermişdir. Əhali tez-tez yerini dəyişdiyindən təsvir edilən obyektlərin adları da müxtəlifdir, yəni eyni obyektin müxtəlif adları vardır. Məsələn, Penelopa yuxuda gördüyü gözəl səsli bir quşun adını belə xatırlayır: «Allahlarda – ***xalkidadır***, fanilərdə ***– kimindadır».*** (213) Ümumən əsərdə əsas hədisələr ölümsüzlər (allahlar) və fanilərlə (ölərilər, insanlar) bağlı olduğu kimi, Homerin fikrincə, adları da onlar vermişlər: ölümsüzlərin verdiyi adlar daha qədimdir, bir sıra xüsusi adların hansı tayfa tərəfindən verildiyini bilmədiyi üçün Homer belə adları allahlara aid edir; fanilərin verdiyi adlar isə Homerin təsvir etdiyi dövr sakinlərinin verdiyi adlardır..

Bizim cəmiyyət dillərin inkişaf yolunu pis təsəvvür edir. Odur ki dillərin təşəkkül tarixi də çox zaman bəsit təsəvvür edilir. Hələ üç min il əvvəl dillərin (və şübhəsiz öz dilinin və yunan dilinin) zənginliyi barədə Troya qəhrəmanlarından igid Eney Axillesə müraciətlə deyir:

İnsanların dili oynaq, bu dildə də sözlər bol-bol,
Düz-dünyanı ot otlayan sürülər tək bürüyər söz.
Nə söz desən, cavabında elə bir söz eşidərsən,..
Bir-birilə bəhsə girib, küçənin tən ortasında
Hirslənərək söyüş söyən arvadlartək, doğru-yalan,
Hərzə sözlər söyləməklə bir-birini təhqir etmək
Bizə əsla yaraşmayır… (304)

Elə bil, bugünkü dil, bugünkü insanlardır. 3000 il əvvəlki dili Homer nə qədər zəngin və enerjili bilir!

Poemalarda, xüsusilə «İliada»da türk mənşəli xeyli toponim, etnonim, hidronim və antroponim işlənmişdir. Doğrudur, poemalarda, xüsusən də «Odisseya» əsərində mifik adlar da çoxdur, lakin ***Malay burnu, Krit adası, İardançay mənsəbi, Misir sahili, Afina, Sparta, Frakiya, Kipr*** və s. kimi real tarixi toponimlər göstərir ki, poemalarda işlənmiş hər xüsusi adı mifik ad hesab etmək olmaz.

Xüsusi adların bir qismini nəzərdən keçirək. Məqsəd yunanlarla türklərin mədəni yaxınlığını qeyd etməkdir.

Troya. «İliada» və «Odisseya» toponimləri içərisində ən çox işlənəni və «İliada»da hadisələrin cərəyan etdiyi məkanı göstərən söz ***İlion*** və ***Troya*** sözləridir. Əsərdən belə duymaq olur ki, Troya həm axeylilərin

dağıtmaq və qarət etmək istədikləri mərkəzi şəhərin, həm də padşahlığın, troyanların hökmü çatan ərazilərin ümumi adıdır. Elmi ədəbiyyatda troyalıların Kiçik Asiyanın qərbində, Egey dənizinin şərq sahillərində çox qədim dövrlərdən məskunlaşdığı qeyd edilir. İngilis alimi K.Blegen troyalıların e.ə.3000-2500-cü illərdə Şərqi Avropadan gəlmiş trakların nəsilləri olduğunu qeyd etmişdir. (4,35) ***Trak*** sözü «türk» sözünün fonetik variantıdır. *Türk* sözündə ***–k*** cəm şəkilçisidir (3,212); *tor, tur* - «doğmaq», «törəmək» mənasında eyni sözün qədim variantlarıdır. *Troya* sözündə ***-oya*** yunan elementidir, sözü nominativ formaya salan şəkilçidir – türk yurdu, türk şəhəri deməkdir. Antik ədəbiyyatda qohum və müttəfiq olduqları daim vurğulanan traklar və troyalılar eyni etnosun daşıyıcılarıdır. «Qərbi Avropanın tires-turşa mənşəli xalqları (etrusklar, traklar, pelasklar), Kiçik Asiyada isə troyalılar (turşa) prototürklərin qərb qolunun nəsilləri idilər. Avropanın şimalında Tor oğlu Odinin başçılığı altında troyalıların məskunlaşmasından bəhs edən qədim Skandinaviya coğrafiya əsərləri bu xalqı həm də ***türklər*** adlandırır. Burada göstərilir ki, Tor oğlu Odinin başçılığı altında türklər Asiyadan (Kiçik Asiya nəzərdə tutulur) Avropanın şimalına gəlmişlər. Gələnlərin «Priamın xalqı» adlandırılması onların Kiçik Asiyadan – əfsanəvi Troyadan gəldiklərinə aydınlıq gətirir… İtaliyaya köçmüş troyalılar orada etrusk xalqının əsasını qoymuş, Avropanın şimalına gələnlər isə sonralar Skandinaviya saqalarının surətlərinə çevrilmişlər». (5,15-16) «Atoynadan ***Troil*** yox, allahsifət Mestor yoxdur, Hektor da yox!» (362) - sözlərindən göründüyü kimi, ***Tor(-o-il)*** adı hadisələrin cərəyan etdiyi dövrdə antroponim kimi də işlənməkdə imiş.

İlion. Poemalarda Troya şəhəri eyni zamanda ***İlion*** adlanır. Yəni bu sözlər bir növ sinonim kimi işlənmişdir. Zevs Troyanın qəddar düşməni olan arvadı Heraya deyir:

Qəribədir!.. Priamın nəsli sənə neyləyib ki,
Fikrin-zikrin gözəl, abad ***İlionu*** dağıtmaqdır?..
Qəlbən razı olmasam da, verdim sənə ***Troyanı,***
Günəş ilə ulduzların altındakı gen dünyada
İnsanların yaşadığı şəhərlərin hamısından
Ürəyimdə ***İlionu*** ən müqəddəs sayıram mən;
Priam da, əhali də hamısından xoşdur mənə. (57)

Elə bil, bugünkü vəziyyətdir: biz hamıya, bütün millətlərə yaxşı olduğumuz və yaxşılıq etdiyimiz halda, Yer üzünün bütün allahları bizim əleyhimizədir; Hera Axillesə qüvvə vermək üçün deyir:

Qoy bilsin ki, Olimpdəki allahlardan onu sevən
Ən qüdrətli allahlardır, troyalı qoşunlara
Kömək edən allahlarsa,zəif, gücsüz allahlardır. (301)

Fikrimizcə, İlion yalnız qalanın adını bildirir, Troya isə geniş mənaya malikdir və bütün müttəfiq ərazilərini əhatə edir. Təbii ki, konkret halda şəhərin adı kimi də çox işlənmişdir.

İlion – «İl» sözündəndir; ***-ion*** yunan elementidir. «İliada» əsərində *İl düzü, İlin qoca məzarı* kimi ifadələr vardır: «***İl*** düzüylə qaça-qaça, İda dağı ətəyində sıx meşədə… gizlənərəm».(323) «Qocalarsa ötmüşdülər ***İlin*** qoca məzarını». (364) Aydın olur ki, İl troyanların görkəmli dövlət xadimlərindən olmuş, onun dəfn edildiyi düzü ***İl düzü*** adlandırmış, şəhərə onun adını vermişlər. ***İl*** xalis türk sözüdür. Poemanın adı da buradandır: ***İl-iada*** – «İl (haqqında) oda», «İlnamə, İl nəğməsi» mənasında. *İl//el* qədim türklərdə xüsusi ad və titul bildirən söz kimi işlənmişdir: ***İl bilge qadun***.(6, 169; 207)

Qarqar. Məşhur tayfa adını bildirən ***qarqar*** sözünə «İliada»da toponim kimi bir neçə dəfə rast gəlmək olur:

Hera isə çıxdı İda dağındakı təpələrin
Qarqar adlı zirvəsinə. (213)
Uca ***Qarqar*** zirvəsində qucaqlayıb arvadını
Yuxu ilə eşqə uyub şirin-şirin yatdı Zeves. (215)
Bir az sonra yetişdilər suları bol pak İdaya,
Qarqarın dik zirvəsində oturmuşdu Şimşəksaçan. (222)

Poemaya əlavə edilmiş qeydlərdə *Qarqar* sözü «İda dağının bir yüksəkliyi» kimi izah edilmişdir (7,623) Qarqarlar artıq sübut edilmiş çox qədim və çox geniş yayılmış türk tayfalarındandır. Azərbaycanda da geniş məskən salmışlar və izləri bu günə qədər qalmaqdadır. Onlar albanlardan sonra Azərbaycanın ən böyük tayfası olmuşlar. Təkcə Cənubi və Şimali Azərbaycan, Şimali Qafqaz ərazilərində deyil, Mərkəzi Asiyada da geniş yayılmış bir tayfa olmuşlar Türkmənistanda iki Qarqar çayı, Qazaxıstanda Qarqar rayonu vardır. (ətraflı məlumat üçün bax: 3,358-359). V əsrdə ölkəmizdə Qarqar əlifbasının yaradıldığı məlumdur. Qarqarlar şimala, qərbə və şərqə Azərbaycan ərazisindən yayılmışdır. Anadolunun qərbində Homerin təsvir etdiyi İda dağında Qarqar zirvəsi onların bu ərazilərdə daha qədimdən məskunlaşdığını göstərir.

Gəldi İda təpəsinə, heyvanı bol ***Qarqaraya*** –
Bura onun meşəsiydi, ətir saçan qurbangahı (114) –

misralarından (Zevs haqqında) aydın olur ki, Qarqara yalnız boş zirvə, təpə deyil, həm də yaşayış məskənidir. Tərcümədə *İda təpəsi* ifadəsi düz deyil, Qarqar təpəsi işlənib, İda dağın adıdır:

On ustremləl ix na İdu, zverey mnoqovodnuö materğ,
K Qarqaru xolmu, qde roha eqo i altarğ blaqovonnıy.
(7, 111)

İda. «İliada»da tez-tez adı çəkilən ***İda*** Troyanın qarşısındakı uca dağın adıdır. Troya onun ətəyindəki düzənlikdə salınmışdır. Tədqiqatçıların fikrincə, qədim yunan dilində iki sait arasındakı ***d*** səsi qədim türklərdəki ***ş*** səsinə uyğun gəlir. Odur ki ***ida/idi*** sözü ***işi, yış, yiş*** kimi təsəvvür edilir ki, bu da «meşə», «meşə ilə örtülmüş dağ» mənasını verir. (8,22; 5,139) Poemada İda dağı həqiqətən bol sulu, meşəli bir dağ kimi təsvir edilmişdir.

Skamandr, Skandiya, Askaniya, Skey, Pelask, Ksanf sözləri**.**

Skamandr sözü «İliada»da əksərən hidronim, bəzən də toponim kimi işlənmişdir – Troyanın yaxınlığından axıb dənizə tökülən böyük çayın adıdır**:** ***Skamandr çayı, Skamandr sahili, Skamandr vadisi, bol girdablı Skamandr****.* Bunlardan əlavə*,* ***Skamandr çəməni, Skamandrın kahini*** ifadələri də vardır:

Skamandr *vadisinə* dalğa-dalğa axışdılar
Gəlib durdu saysız qoşun ***Skamandr çəmənində***. (35)
Skamandr sahilində əyləşdirdi bir qayada.(70)
Dolopion ***Skamandrın kahiniydi***. (71)
Onlar gəlib qovuşdular İlionun yaxınında
Simoyentlə ***Skamandr çaylarının*** qovşağına. (86)

Skamandr sözünün kökündə ***SK*** – *sak* sözü vardır; sözün tərkibindəki *-man* «adam» deməkdir.: sak adamı, başqa sözlə, saklar; ***der*** – *dərin/ terin* - «dərin və böyük (çay)» (6,553-554) deməkdir. Söz bütövlükdə «sakların böyük və dərin çayı» ümumi mənasına malikdir. Deməli, Troya şəhərinin əraziləri, əslində, sak yurdudur. Çünki bu söz çay, sahil, düz, çəmən və s. kimi müxtəlif obyektlərin adı ilə bağlı özünü göstərir. Bir beytdə ərazinin sak ərazisi olduğu daha aydın ifadə edilmişdir:

Bu sərpuşu bir zamanlar Yeleonda gənc Avtolik
Ormenoğlu Amentorun divarını yarıb, ondan
Oğurlamış*,* ***Skandiyada*** Amfidamant adlı şəxsə vermiş… (148)

Buradakı ***Skandiya*** sözünü ***Sakandiya*** kimi oxumaq olur ki, bu da ***sak-an-diya*** şəklində üç sözdən əmələ gəlmişdir: *-an* cəm şəkilçisi, *-diya* yer mənasındadır.

Atrey oğlu Menelay da iti, uzun nizəsilə
Məşhur ovçu ***Strofid Skamandrini*** həlak etdi. (70) –

beytində isə, göründüyü kimi, ***Skamandr*** ovçu adına əlavə kimi işlənmişdir: ***Strofid Skamandr*** – ***sak Strofid*** deməkdir.

«İliada»da ***Skey qapısı, Skey darvazası*** ifadələrinə də rast gəlirik:

Bu arada Hektor çatdı məşhur ***Skey qapısına***…
Hektor bürcdən uzaqlarda vuruşmağa cürət etmir,
Ancaq ***Skey qapısından*** palıdadək ayrılırdı. (133)
Möhkəm ***Skey darvazası*** qarşısında qalmışdı tək.(325)

Bu misralardakı ***Skey*** sözü də ***sak*** sözündən və ***–ey,-ay*** şəkilçisindən (nominativlik bildirir) ibarətdir. Aydın olur ki, ***sak*** sözü bu ərazidə ümumi isim kimi geniş işlənmə imkanı olan sözdür: ***sak çayı, sak düzü, sak qapısı, sak çəmənliyi*** və s. Bunu xüsusi ad kimi dərk etmiş, böyük hərflə yazmışlar. Lakin hiss olunur ki, ***Skamandr*** sözü elə xüsusi ad kimi də troyanlar arasında məşhurdur. Hektor öz körpə oğluna ***Skamandr*** adı qoymuşdur:

Hektor ona ***Skamandr*** ad qoymuşdu, ancaq hamı
Astinankt çağırırdı atasının şərəfinə**.** (99)

(Buradakı ***Astinankt*** **sözü** ilə midiyalıların son padşahının adı – *Astiaq* adı arasında yaxınlıq var).

Hətta aydın olur ki, saklar daha geniş ərazilərə yayılmışlar. Bilavasitə Troya ətrafı ilə yanaşı, xeyli aralıda da saklar yaşayır və sak yurdu vardır:

Uzaq diyar ***Askanyadan*** frikyalı qoşunları
İki başçı – Foriks ilə mərd Aksani gətirmişdi. (44)

Buradakı ***Askaniya*** sözü ***Sakaniya*** demək olub, «sak yurdu» mənasındadır. ***Aksani*** isə ***kas*** sözündən düzəlmə daha maraqlı addır.

Poemada bir neçə dəfə işlənmiş ***pelask*** sözü (yun.*Pelasqoi* –Kiçik Asiyada qəbilə, 13,398,) də vardır və bu söz *sak* sözünü artıq etnonim kimi mühafizə etməkdədir:

Nizə-mizraq döyüşündə mahir olan ***pelaSKların -***
Bol məhsuldar-bərəkətli Larisadan gələnlərin…

Və ya:

PelaSKlardan Lefin oğlu mərd Kippofoy qoç Patroklun
Topuğuna möhkəm qayış salıb… sürüməyə başlamışdı.(263)

Bunlar maraqlıdır. Lakin bunlardan da maraqlısı ***Skamandr*** çay adının həm də ***Ksanf*** adlanmasıdır:

Hefestlə də düşmən oldu gur dalğalı dərin bir çay
Ki, allahlar ***Ksanf*** deyir ona, insan – ***Skamandr***.(300)

Protiv Qefesta - potok bıstrovodnıy, qlubokopuçinnıy,
Ksanfom ot veçnıx boqov nareçennıy, ot smertnıx – Skamandrom.
(287)

Ksanf sözünün işləndiyi bir neçə nümunə:

Ksanf çayı bu sözlərdən coşdu yaman. (314)
Sən də ***Ksanf*** sahilində ağacları
Odlayaraq alovlarla hücum elə sərt ***Ksanfa.*** (318)

Homer qeyd edir ki, ölümsüzlər – allahlar bu çayı ***Ksanf***, fanilər – ölərilər, insanlar isə ***Skamandr*** adlandırırlar. Homerin bu qeydi bizim üçün çox sevindiricidir. *Ksanf* sözünün kökündə ***kas*** sözü var. Kaslar və saklar isə bir kökdəndir. Bizim üçün Homerin izahatı ona görə son dərəcə əhəmiyyətlidir ki, vaxtilə irəli sürdüyümüz bir fikri tam təsdiq edir: «Kaslar və saklar eyni tayfadır, adları da eynidir – yalnız adda metateza baş vermişdir. Kaslar həm də *kaşu* (elamca) adlanır, saklar həm də *şaka* adlanır; ***kas, kaş*** – ***sak, şak*** eyni sözün müxtəlif tələffüz formalarıdır. Bunlardan ilkini kaslar olmuşdur. Arxa sıra kar «k» səsi daha qədim sayılır. Həm də Azərbaycan ərazisində bu adla tanınmış ən qədim tayfa kaslar hesab olunur. Deməli, kasların ilkin parçalanması ən azı tunc dövrünə aiddir…» (3,325) Homerin ***Ksanf*** sözünü allahlara aid etməsi o deməkdir ki, bu sözün tarixini insanlarla bağlamaqda çətinlik çəkmişdir, çünki çox qədimdir. Lakin ***Skamandr*** sözü Homerin müasiri olan saklarla bağlıdır.

Dardaniya, dardanlar. «İliada»da troyalılar özlərini həm də ***dardanlar*** adlandırırlar. Hektor qoşunlara belə müraciət edir: «Ey Troya, ey Likiya oğulları, ey dardanlar!». (161) Yaxud Axillesin sözləri: «Yumru döşlü troyalı, dardanyalı qadınları uca səslə hönkürməyə məcbur etmək». (277) «Hər dəfə o qaçıb ***Dardan qapısına*** – bürcə sarı… qorunmağa çalışırdı».(329) Priam bəzən poemada ***Dardanid Priam*** (361) adlandırılır və s.

Cəsur Eney Axilleslə rastlaşaraq döyüş meydanında ona öz nəslini belə tanıdır: İlk babamız Dardan ulu Zevsdən törəmişdir. O, Dardaniyanın banisidir. Onda hələ İlion yox idi, hamı İdanın ətəyində yaşayırdı. Dardanın bir oğlu oldu – Erixtoni. Erixtoninin oğlu Tros Troyada hakim oldu. Trosun üç oğlu vardı: İl. Assarak, Qanimed (yəqin ki, ***Qənimət***). Qanimedi allahlar tez apardı, gözəl idi, özlərinə saqi etdilər. İlin bir oğlu oldu – Laomedont. Laomedont Titonda hökmdar idi. Onun dörd oğlu vardı: Priam,

Kliti, Giketaon, Lamp. Assarakın oğlu Kapi, Kapinin də oğlu Anxiz. Mən Anxizdən törəmişəm, Hektor isə Priamdan. (304)

«İlk babamız Dardan ulu Zevsdən törəmişdir» - sözlərindən aydın olur ki, dardanların bu yerlərə nə vaxt gəldiyi bilinmir, Homerə məlum deyil. Müvafiq elmi fikirlər var: «Antik müəllif Apollodor Troyanın yaranmasını əfsanəvi Dardan ilə bağlayaraq yazır ki, Atlantın qızı Elektra ilə Zevsdən Yasion və Dardan doğulmuşlar.. Dardan Tevkrin çarlıq etdiyi ölkəyə gəlir, onun qızı Batiya ilə evlənir və burada Dardan adlı şəhər salır. Tevkrin ölümündən sonra ölkə Dardaniya adlanır. Onun İl və Erixtoni adlı oğulları dünyaya gəlir. Erixtonidən doğulan Troy çarlığı ələ aldıqdan sonra bütün ölkə Troya adlanmağa başlayır».(5, 55) «Bu rəvayət troyalıların e.ə. 3000-2500-ci illərdə Kiçik Asiyaya gəlmiş trakların nəsilləri olduğu haqqında K.Blegenin fikri ilə üst-üstə düşür». (5, 55) Aydın olur ki, troyalılar indi (hadisələrin cərəyan etdiyi dövrdə) artıb çoxalmışdır və Dardaniya Troyanın vilayətlərindən birinə çevrilmişdir. Ç.Qaraşarlı Qazaxıstanda Dardan dağ adı, qırğızlarda şəxs adı olduğunu və ***dardan*** sözünün türkcə «özünü böyük sanan», «lovğa» mənalarında işləndiyini müəyyən etmişdir.(5, 56)

Bati. Bu sözə aşağıdakı misralarda rast gəlirik:

Troyanın qarşısında xeyli uzaq bir düzəndə
Xeyli uca bir təpə var, dörd bir yanı rahat yoldur.
Fani insan bu təpəyə ***Bati*** adı vermiş, ancaq
Ölümsüzlər – qoçaq-zirək ***Marinanın*** qəbri deyir.(43)

Bati/Batı adı türklərdə geniş yayılmış şəxs adlarındandır. Batiya antik qaynaqlarda (9,65) Dardan hakimi Dardanın arvadı hesab olunur. Qazax qadın adı *Batiya*, kişi adı məşhur *Batı xan* antroponimlərini xatırlamaq olar

Kimmerlər. Bu sözü ilk dəfə Homer ədəbiyyata gətirmişdir:

Kommerilər *məmləkəti* hər vaxt sisli-dumanlıdır.(492)
Üzüb dərin Okean-çay sularını bütün günü
Kommerilər yaşadığı bir şəhərə gəlib çatdıq.

Söz rus dilinə yunan dilindən tərcümədə daha düzgün işlənmişdir:

Skoro prişli mı k qlubokotekuhim vodam Okeana;
Tam ***kimmeriən*** peçalğnaə oblastğ. Pokrıtaə veçno
Vlajnım tumanom i mqloy oblakov…

Yunan dilində ***Kimmerioi, Kimmerii*** şəkillərindədir. (13,283) Kimmerlər saklar və skiflərlə bir kökdən olub, ən qədim türk tayfalarındandır. ***Qam*** *(kahin)* ***ər*** mənasında olan *kimmer* sözünün daşıyıcıları geniş ərazilərdə yayılmış, Azərbaycanda dərin izlər qoymuşlar. (3, 301-305)

Troya şəxs adlarını diqqətlə nəzərdən keçirdikdə, yunan tələffüzü ilə təhrif edilməsinə baxmayaraq, onların bir çoxunun türk mənşəli olduğunu üzə çıxarmaq olur.

Priam – (yun. *Priamos*,13,426) Troyanın son çarı olmuşdur. Onillik müharibə nəticəsində onun vaxtında axeylər Troyanı dağıtmış, əhali müxtəlif istiqamətlərə köçüb getməli olmuşdur. Mənbələr göstərir ki, Priamın xalqına e.ə. XIII əsrdə uzaq şimalda – Skandinaviya ərazilərində, Misirdə və s. yerlərdə rast gəlmək olur. Tədqiqatçılar bunun Troyanın süqutu ilə eyni vaxta düşməsini məntiqi hesab edirlər.

Priam sözü türk dillərindəki ***börü***, o cümlədən şor, saqay türklərinin dillərində işlənən ***pürü*** – «qurd, börü» (10,1398) və ***am*** -«ana» (11,271) sözlərindən olub, «ana qurd» mənasını verir. Qədim qazax eposunda «Priyamın hekayəsi» adlı hissə olduğu göstərilir və Priyam Turan ölkəsinin qəhrəmanı, Əfrasiyabın bahadırı kimi təsvir edilir. (5, 54)

Hektor – çar Priamın oğlunun, Troya ordusunun ən qüdrətli sərkərdəsinin adıdır. Yalnız allahların qərarı ilə Axilles ona qalib gələ bilir.

Zahirən bu söz türk sözünə oxşamır. Lakin söz başındakı ***«h»*** səsini atsaq və samitləri yumşaltsaq, ***gd-r*** sammitləri ilə bu sözü «igid ər» kimi oxumaq mümkündür.

Eney – ən cəsur Troya qəhrəmanıdır. Axillesi qorxuya salan bir igiddir, Hektorla əminəvəsidir. Şair onu «Xalq içində allah kimi çox sevilən mərd Eney», «Troyanın müşaviri nəcib Eney» **(**73) kimi səciyyələndirmişdir. Homer tarixi hadisəni realist bir şəkildə təsvir etmiş, Eneyi müharibədə salamat saxlamışdır:

Eneyin Axilleslə birbaşa döyüşə atıldığını, lakin Axillesin hələ ölümə məhkum olmadığını görən Poseydon allahların məclisində həyəcanla deyir:

Ey allahlar, gəlin xilas eyləyək biz mərd Eneyi,
Peleyoğlu əgər onu öldürərsə, Şimşəksaçan
Əsla bundan razı qalmaz… Tale belə hökm edir ki,
Dardan nəsli gərək tamam kəsilməsin bu dünyadan.
Ulu Zeves adi, ani qadınlardan olan bütün
Oğulları arasında hamıdan çox sevir onu.
Priamın nəslindənsə nifrət edir Kronion.
Bundan sonra Troyada əvvəl igid Eney özü,
Sonralar da övladları hökmranlıq edəcəkdir. (305)

(Kronion Zevs eyni zamanda Şimşəksaçan da adlanır). Məsələ Poseydonun dediyi kimi olur. Eneyin müharibədən sonrakı taleyi uğurlu olmuşdur. Qədim mənbələrə əsasən müəyyənləşdirmişlər ki, məğlubiyyətdən sonra Eney öz qəbiləsi ilə - Dardan qaçqınları ilə İtaliya ərazisinə keçərək etruskların təşəkkülünə səbəb olmuşdur. Yerlilərin başçısı Latin öz qızını Eneyə ərə vermiş, troyalılarla Latinin camaatı birləşərək bir dövlət

yaratmışdır. Yeni yaranmış xalqı Latinin adı ilə ***Latın xalqı*** adlandırmışlar. Troyanın süqutundan başlayaraq on altı nəsil ötdükdən sonra Eneyin 17-ci nəsli olan Romul öz adamları ilə gəlib Palantiyada qala salmış və öz şərəfinə ona ***Roma*** demişdir. Etrusk yazılarında Dardan tanrılarından bəhs edilir. Etrusk ərazilərindən üzərində Eneyin təsviri olan qab tapılmışdır. Roma imperatorları öz babaları Eneylə fəxr etmiş, Yuli Sezar Eneyi öz əcdadı saymış və Eneyin oğlu Yulun adını daşımışdır. (bax: 5,64-64) Bunları ona görə bir qədər təfərrüatı ilə qeyd edirik ki, türk mif və əfsanələrinin qərbə necə yayıldığı ilə oxucu bir daha tanış ola bilsin.

Türklərin həmin dövrdə İtaliya ərazilərinə köçməsi barədə başqa tarixi məlumatlar da vardır. Bu axının bir mühüm səbəbini də Troyanın süqutu dövründə Kiçik Asiyada baş vermiş dəhşətli aclıqla izah etmişlər. Tarixdə bununla bağlı iki mühüm köç haqqında məlumat verilir: «E.ə.XII yüzilliyin başlanğıcında (biz onun tarixini dəqiq müəyyənləşdirə bilmirik) Xett imperiyasının məhvini təqribən xalqların iki köçü ilə əlaqələndirirlər. Onlardan biri 1225-ci ildə Merneptax dövründə, o birisi isə 1192-ci ildə III Ramses dövründə Misir sərhədinə köçürmədən ibarət olmuşdur. İkinci köçdən az sonra və ya dərhal ondan sonra, görünür, Troyanın süqutu baş vermişdir (yunan mənbələrinə görə).

Hər iki köç xalqların tərkibinə görə tamamilə müxtəlif idi və müxtəlif səbəblərdən baş vermişdi. Merneptaxın dövründə Kiçik Asiyada elə dəhşətli aclıq yayılmışdı ki, tirrenslərin də (başqa sözlə etruskların) bir qisminin turuşlar adı ilə birinci dalğada hərəkətinə səbəb olmuşdu. Yerdəyişmə iqtisadi səbəblərlə bağlı idi. Mühacirlər dəniz yolu ilə Kiçik Asiyadan qərbə yönəlmişdilər (onların bir hissəsi İtaliyaya düşə bilərdilər) …» (16,16-17)

Eney sözünü yunan dilindəki ***aenea*** («əbədi») və latın dilindəki ***aeneus*** («möhkəm», «uçulmaz») sözləri ilə müqayisə etmişlər.(5, 55). Lakin fikrimizcə, bu söz türk dillərində çox geniş şəkildə işlənən «qurd balası» mənasında ***əniy*** sözündəndir. Böyük türk xaqanlığını yaratmış Bumın kağanın tayfası da çin dilində bu sözlə ***a-şina*** – «nəcib qurd» adlanırdı. (rus dilindəki *henok*, türk dillərindəki ***ənik,*** çin dilindəki ***şena*** sözləri eyniköklüdür; bax: 14, 97-114)

Paris – Priamın oğludur. Onun Aqamemnonun qardaşı Menelayın arvadı gözəl Yelenanı qaçırıb Troyaya gətirməsi müharibə üçün bəhanə sayılır. Odur ki hərdən qınaq mənbəyidir: «Ey saçını qız tək hörüb, qızlardan göz ayırmayan lovğa qoçaq…» (163)

Paris - «bars» (pələng) sözündəndir. Türk dillərində ***Bars buğa, Bars beg,*** xakas dilində isə ***Paris*** adları məlumdur. (6,,84-85)

Troya qəhrəmanlarından ***Alber*** adının «alp ər» mənasında olduğu, ***Askan*** şəxs adının «azqın» sözü ilə bağlı olub «dəcəl, qəzəblənmiş, qızmış, tərs, sözə baxmayan» mənalarında işləndiyi izah edilmişdir..(5,56-57) Priamın bacısının adını bildirən ***Aytilla*** adı qırğız antroponimiyasındakı

Aytilla* ilə** müqayisə edilmişdir. (5, 58) Bu söz bəlkə də böyük hun sərkərdəsinin adının -Attila*** sözünün əcdadıdır. Afrodita troyalıların dilində ***Bayana*** şəklində qeydə alınmışdır. ***Bayana*** türk mifologiyasında himayəçi qadın tanrısı sayılır və «bəy ana» kimi izah edilir. (12,82-85)

Bunlardan başqa, poemalardakı ***Alt*** (Priamın qaynatasının adı, 313), ***İtil*** (597), ***Pir*** (246), ***Elat*** (tərcümədə *Yelat* verilib, 90) kimi şəxs adlarının, ***Tayget*** dağ adının (tərcümədə *Qayget* gedib, 439), ***Aksi* çay** adının (44) türk mənşəli olduğunu söyləmək mümkündür.

Ümumən Homerin «İliada» və «Odisseya» poemalarındakı onomastik leksikanın ətraflı tədqiqinə xüsusi ehtiyac vardır. Biz isə Homer dövründə «Dədə Qorqud»u yaradan oğuz türk tayfalarının axeylilər və başqa hindavropalılar ilə qonşuluq şəraitində yaşadıqlarını, yaxın əlaqə və münasibətdə olduqlarını göstərmək üçün bir neçə nümunəni nəzərdən keçirməli olduq. Bunlar göstərir ki, bir kökdən olan insan eyni real hadisələr, eyni mif və əfsanələr əsasında dastanlar yaradır və həmin dastanları tədricən öz səciyyəsinə müvafiq şəkildə cilalayır.

ƏDƏBİYYAT

1.Homer. İliada. Odisseya. Bakı, «Yazıçı»,1986 («İliada» M.Rzaquluzadə, «Odisseya» Ə.Ziyatay tərəfindən tərcümə edilmişdir).
2.Kitabi-Dədə Qorqud. Bakı, «Yazıçı», 1988.
3.Q.Kazımov.Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər), Bakı, «Təhsil» Nəşriyyatı, 2003.
4.C. W. Blegen. Troy and the Troyans, N. Y., 1963.
5.Çingiz Qaraşarlı. Qədim yunan, roman, kelt və german dillərində türkizmlər. Bakı, «Elm», 2005.
6.Drevnetörkskiy slovarğ. Leninqrad, «Nauka»,1969.
7.Qomer. İliada. Odisseə. Alma-Ata, «Mektep», 1986. Perevod s drevneqreçeskoqo N.Qnediça, V.Jukovskoqo.
8.L.A. Qindin. Naselenie qomerovskoy Troi. M., «Nauka», 1993.
9. Apollodor. Mifoloqiçeskaə biblioteka. L., «Nauka» 1972,
10.V.V.Radlov. Opıt slovarə törkskix nareçiy. IV-2.
11.G.V.Sevortən. Gtimoloqiçeskiy slovarğ törkskix əzıkov. İzd.-vo «Nauka», M., 1974.
12.N.Kudaçina. K gtimoloqii slova «bay» v altayskom əzıke. Sovetskaə törkoloqiə, 5, 1980.
13.Vl.Kruze. Qomerovskiy slovarğ. S.Peterburq, 1880
14.Q.Kazımov.Dil. Tarix. Poeziya. Bakı, «Nurlan», 2005.
15.Əli Sultanlı. «Kitabi-Dədə Qorqud» və qədim yunan dastanları, Bakı, Elm, 1999.
16.M.Rimşneyder. Ot Olimpii do Ninevii vo vremena Qomera». Perevod s nemeükoqo L.P.Suzdalğskoy, Moskva, «Nauka», 1977.
17.Ə.Dəmirçizadə. Azərbaycan ədəbi dili tarixi.Birinci hissə, Bakı, «Maarif», 1979.
18.Kitabi-Dədə Qorqud.Bakı, Yazıçı, 1988.
19.Mirəli Seyidov. Azərbaycan mifik təfəkküründün qaynaqları. Bakı, Yazıçı, 1983.
20.A.Jubanov. Strunı stoletiy. Oçerki o jizni , deətelğnosti i tvorçestve kazaxskix narodnıx kompozitorov, Alma-Ata, 1972.

21..M.Seyidov. Azərbaycan – erməni ədəbi əlaqələri, Bakı, Elm, 1976.

Homer's Poems and "Kitabi-Dede Qorgud"
Professor Gazanfar Kazimov

In his article professor Kazimov investigates the Troyan events of the 50s of the XIII century B.C. and topic relations between the poems of "Iliad" and "Odyssey" and "Kitabi-Dede Qorgud".

Such chapters of "Dede Qorgud" as "How does Basat kill Depegoz", "Gam Bore's son Bamsi Beyrek", "Salur Qazan's house theft" and in some other chapters in the depiction of political events, in composition and structures, in the ways of depiction, in religious world outlook one can find a very close coincidence between "Iliad" and "Odyssey" and "Dede Qorgud".

These once again show that though "Kitabi-Dede Qorgud" later was brought to Islam isues, and some modernizations were done in poem, this work is a good example of military democratic period, and it is the monument of Homer's period and of his age. Both Homer's poems and "Kitabi-Dede Qorgud" took their beginning from the same root. It becomes clear that Indo-europeans and turks lived together and side-by-side and created original masterpieces of art on the basis of the same social events.

The second major reason is that the investigation of Troya toponyms, etnonyms, hidronyms, and antroponyms show that they are of turk origin. And it once more proves the thesis that the Troya is a turk town, and the troyans are turk tribes.

Газанфар Кязимов
доктор филологических
наук, профессор

ПОЭМЫ ГОМЕРА И ЭПОС «КНИГА МОЕГО ДЕДА КОРКУДА»

В статье подвергнуты анализу сюъетные параллели меъду огузским героическим эпосом «Китаби-Деде Коркуд» и эпическими поэмами Гомера – «Илиадой» и «Одиссей», повествующими о событиях и героях Троянской войны 60-50-х гг. ХЫЫЫ в. до н.э,, приключениях Одиссея. В результате этого исследования установлены существенные переклички гомеровских поэм с огузским эпосом в описании общественных явлений, в композиционном построении фабулы и сюъета, в изобразительных средствах и способах, в ростках социального уклада и политического строя, в религиозных веро-

ваниях. Более того, историко-лингвистический анализ топонимов, этнонимов, гидронимов и антропонимов, связанных с Троей, выявил несомненное тюркское их происхоъдения, подтвердив отмеченный в специальной литературе факт: Троя был тюркский город, троянцы были тюркскими племенами.

Таким образом, несмотря на то, что «Книга моего деда Коркуда» в эпоху раннего средневековья претерпела определенную исламизацию, неоднократно испытывала впоследствии осовременивание, этот героический эпос, носящий явный отпечаток эпохи военной демократии, является памятником времён Гомера, ровесником эпических поэм великого древнегреческого старца. Не подлеъит сомнению тот факт, что общими источниками этих оригинальных образцов высокого искусства были одни и те ъе мифы и легенды, фольклорные материалы, социальные уклады, общественно-политыческие события, предопределенные общностью совместной ъизнедеятельности индоевропейцев и тюрков.

Qəzənfər KAZIMOV
Filologiya elmləri doktoru, professor

HOMERİN POEMALARI VƏ «KİTABİ-DƏDƏ QORQUD»

Məqalədə Homerin e.ə. XIII əsrin 50-ci illərinə dair Troya hadisələrindən və sonrakı onillikdə Troya qəhrəmanlarından Odisseyin başına gələn macəralardan bəhs edən poemaları («İliada» və «Odisseya») ilə «Kitabi-Dədə Qorqud» dastanı arasındakı süjet uyğunluqları araşdırılmışdır.

«Dədə Qorqud»un «Basatın Dəpəgözi öldürməsi», «Qam Börənin oğlı Bamsı Beyrək», «Salur Qazanın evi yağmalandığı» boylarında və bir sıra başqa boylarda ictimai hadisələrin təsvirində, kompozisiya və quruluş məsələlərində, təsvir üsullarında, ctimai-siyasi quruluşun görüntülərində, dini görüşlərdə «İliada» və «Odisseya» əsərləri ilə çox mühüm uyğunluqlar vardır.

Bunlar göstərir ki, «Kitabi-Dədə Qorqud» sonralar islam dininə uyğunlaşdırılsa da, dastan üzərində dəfələrlə müasirləşdirmələr aparılsa da, bu əsər hərbi demokratiya dövrünün xüsusiyyətlərini daşıyır və Homer dövrünün yadigarı, Homerin yaşıdıdır. Həm Homerin poemaları, həm də «Kitabi-Dədə Qorqud» eyni mif və hadisələrdən qaynaqlanmışdır. Aydın olur ki, hindavropalılarla türklər birlikdə və yanaşı yaşamış, eyni folklor

materialları, eyni ictimai hadisələr əsasında orijinal sənət nümunələri yaratmışlar.

İkinci bir mühüm cəhət də budur ki, Troya toponim, etnonim, hidronim və antroponimlərinin tədqiqi onların türk mənşəli olduğunu göstərir. Bu hal elmi ədəbiyyatda qeyd edilən bir cəhəti – Troyanın türk şəhəri, troyalıların türk tayfalarından ibarət olduğunu bir daha təsdiq edir.

Qəzənfər KAZIMOV
Filologiya elmləri doktoru, professor

HOMERİN POEMALARI VƏ «KİTABİ-DƏDƏ QORQUD»

Məşhur yunan şairi Homerin dünya ədəbiyyatının ən qədim inciləri olan. e.ə. XIII əsrin 50-ci illərinə dair Troya hadisələrindən və sonrakı onillikdə Troya qəhrəmanlarından Odisseyin başına gələn macəralardan bəhs edən poemaları («İliada» və «Odisseya») ilə bizim «Kitabi-Dədə Qorqud» dastanı arasında çox mühüm süjet uyğunluqları, ideya və üslub yaxınlığı mövcuddur.

«Dədə Qorqud»un «Basatın Dəpəgözi öldürməsi», «Qam Börənin oğlı Bamsı Beyrək», «Salur Qazanın evi yağmalandığı» boylarında və bir sıra başqa boylarda ictimai hadisələrin təsvirində, kompozisiya və quruluş məsələlərində, təsvir vasitə və üsullarının strukturunda, ictimai-siyasi quruluşun görüntülərində, dini görüşlərdə «İliada» və «Odisseya» əsərləri ilə çox mühüm uyğunluqlar vardır.

Yazıya alınma tarixləri arasında uzun zaman fərqi olsa da, hər iki əsərdə ictimai-siyasi quruluş, demək olar ki, eynidir. «Dədə Qorqud»da xanlar öz mülklərini idarə edirlər və vahid bir xana – xanlar xanı Bayındıra tabedirlər. Hər kəsin öz tac-taxtı var. Oğul həsrətilə çırpınan Baybörə bəy

Bayındır xanın ulu məclisində birdən-birə ağlamağının səbəbini belə izah edir: «Bəglər, tacım-təxtim içün ağlaram. Bir gün ola, düşəm öləm, yerimdə-yurdımda kimsə qalmıya».Ölkənin mühafizəsi, qənimətlər əldə edilməsi Bayındırın kürəkəni baş sərkərdə, vitse kral Qazan xana mənsubdur. İç Oğuz, Taş Oğuz iki tayfadır, hər tayfa qəbilələrdən ibarətdir və bir ittifaqda yaşayırlar. Bir sıra boyların sonunda döyüşdən qayıdan və ya döyüşə girən qəbilə başçıları öz titulları ilə bir-bir qeyd olunur, sadalanır.

Eyni quruluş axeylərdə (yunanlarda) və troyanlarda da mövcuddur. Hər iki tərəfdə vahid hakimiyyət var, padşah-hökmdar vardır, eyni zamanda hər bir ölkə qəbilələr ittifaqından ibarətdir. Məsələn, Troya qoşunlarında çox müxtəlif qəbilələr iştirak edir, onlar müttəfiqdirlər, ümumi hökmdar İlion hakimi Priamdır, baş sərkərdə isə Hektordur – Priamın oğlu. Axeylilər də müttəfiq qəbilələrin birliyindən ibarətdir, baş hakim Aqamemnondur, baş sərkərdə isə Axillesdir.

Bu əsərlərin sayəsində biz ədəbiyyatda bir-birinə çox yaxın olan yunan və Azərbaycan Təpəgöz surətləri ilə tanış oluruq.

Hər iki əsərdə işin icra vasitə və üsulları, insanların yaşayış tərzi eynidir.

Əsərlərdə sadiq çoban surətləri vardır və hər iki əsərdə sədaqətli sadə adamlara qayğı ilə yanaşılır.

Həm «Odisseya»da, həm də «Dədə Qorqud»da qadınlar axıra qədər öz ərinə sədaqətlə yaşayır, 16-20 illik ayrılıqdan sonra qayıdıb gələn ərini ciddi sınağa çəkirlər. Penelopanın sehrli çarpayı, Banıçiçəyin üzük əhvalatları kimi.

Hər iki əsərdə ağaca müqəddəs varlıq kimi baxılır.

Hər iki əsərdə hadisələr əvvəlcədən yuxu vasitəsilə xəbər verilir.

Hər iki əsərdə qəhrəmanı əvəz etmək istəyən düşmən qüvvə əvvəl sınağa çəkilir, sonra məhv edilir.

Hər iki əsərdə oğlunu tanımaq üçün sınağa çəkən əzabkeş ata obrazı vardır.

Hər iki əsərdə əsas döyüş alətləri qalxan, ox, qılınc və sapanddır.

Homerin təsvir etdiyi qəbilə və tayfalar müxtəlif bəhanələrlə daim birbirini qarət edir, bu yolla var-dövlət əldə edirlər. Bu cəhət eyni dərəcədə Oğuz qəhrəmanlarına da aiddir.

Axeylərin və troyanların dini görüşləri şumerlərin görüşlərinə uyğundur: çoxallahlılıqdır və allahların ulu əcdadının Okeanın dibində olduğu təsəvvürü vardır.

Bütün bunlar göstərir ki, e.ə. 1260-1240-cı illərin hadisələrindən bəhs edən «İliada» və «Odisseya» əsərləri ilə bizim 1300 illiyini qeyd etdiyimiz «Kitabi-Dədə Qorqud» yaşıddır, eyni dövrdə, eyni real və mifik hadisələr zəminində yaranmışlar. Lakin poemaları yunanlar daha əvvəllər yazıya alıb saxlamış, təbii ki, yeri gəldikcə əlavələr də etmişlər; dastanı isə vaxtında yazıya almamış, sonralar - yazıya alındığı dövrlərdə isə ciddi dəyişikliklərə

uğratmışlar, ilkin formadan fərqli bir formaya salmışlar. Hətta hiss olunur ki, bu və ya digər boyu atmış, yeni boylar yaratmışlar. Və ya obrazların adları, bəlkə arxaik rəng aldığı üçün səciyyəsi də dəyişdirilmişlər. Lakin nə qədər dəyişdirilmiş olsa da, yenə ilkin izlər əsaslı şəkildə qalmışdır.

Bunları – bu uyğun cəhətləri artırmaq da olar. Lakin o tarixi səviyyədən nəzər saldıqda hiss edilir ki, dastanı işləyə-işləyə epizodlarda müasirləşdirmələr aparmışlar. Dili də dəyişmiş, dini də dəyişmişdir. Lakin daim köklü türk dilində olmuş və türk varlığını saxlamışdır. Fikrimizcə, onun başdan-binadan mənzum olduğunu iddia edinlər doğru fikirdədir. Homerin əsərləri və bizim dastan eyni miflərdən, eyni tipik qarət döyüşlərindən, qəbilələrarası müharibələrdən bəhs etsə də, orijinal olmuş, yunan və türk təfəkkürünə uyğun yaradılmışdır.

Qeyd etdiyimiz uyğun detalların heç birini təsadüfi saymaq olmaz. Bunlar minilliklər boyu vahid mənbədən hər bir xalqın özünə məxsus götürdükləridir. Ağla bu da gələ bilməz ki, bu cür süjet eynilikləri biri digərindən köçürmənin nəticəsidir. Sadəcə olaraq, bunlar məntiqi şəkildə aydın göstərir ki, türklər və axeylilər çox qədim dövrlərdən yanaşı yaşamış, bir-biri ilə son dərəcə yaxın münasibətdə olmuşlar. Axeylilər troyanlara qarşı ittifaqla vuruşduqları halda, onların qonşuluğundakı frakiyalılar troyalıların müttəfiqi idilər.

«Kitabi-Dədə Qorqud» sonralar islam dininə uyğunlaşdırılsa da, dastan üzərində dəfələrlə müasirləşdirmələr aparılsa da, bu əsər hərbi demokratiya dövrünün xüsusiyyətlərini daşıyır və Homer dövrünün yadigarı, Homerin yaşıdıdır. Həm Homerin poemaları, həm də «Kitabi-Dədə Qorqud» eyni mif və hadisələrdən qaynaqlanmışdır.

Troya, İlion, Qarqar, İda, ***Skamandr, Skandiya, Askaniya, Skey, Pelask, Ksanf, Dardaniya, dardanlar, Batı, Kimmerlər, Priam, Hektor, Eney, Paris*** və s. Troya toponim, etnonim, hidronim və antroponimlərinin türk mənşəli açılışı göstərir ki, ellinlərlə yanaşı yaşayan troyalıların türk tayfalarından ibarət olduğu, Troyanın türk şəhəri olduğu barədə elmi ədəbiyyatda söylənilən fikirlər doğrudur.

Bunlar bir daha təsdiq edir ki, bir kökdən olan insan eyni real hadisələr, eyni mif və əfsanələr əsasında dastanlar yaradır və həmin dastanları tədricən öz səciyyəsinə, öz təfəkkür tərzinə müvapfiq şəkildə cilalayır.